Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

19 SENTYABR 2019-cu il

№ 166 (4064)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ABŞ-ın ERMƏNİ KOMİTƏSİ MKİ-nin ADINDAN MÜBAHİSƏLİ «QARABAĞ SƏNƏDİ» YAYIB...

■ səh. 5 ■

"Əsrin kontraktı" imzalanmasaydı - Azərbaycanın iqtisadi və siyasi müstəqilliyinin taleyi... ■ səh. 3 ■

Bəzi dövlətlərin şübhə etdiyi "Əsrin kontraktı"ndan sonrakı işlər - 19 dövlət, 26 neft sazişi... ■ səh. 4 ■

Qarabağ münaqişəsinin həllində Azərbaycan ssenarisi üstün mövqedə, Paşinyan hökuməti üçün geri sayım başladı ■ səh. 9 ■

Rusiyanın Ermənistana satdığı qazın 200 dollara qaldırılması vaxtı yetişir - hadisə qısa təsadüf edə bilər ■ səh. 6 ■

ABŞ-ın ilk zərbələr ssenarisi, İranın ilk cavab zərbələri ssenarisi... ■ səh. 7 ■

ABŞ-la İran müharibənin bir addımlığında... ■ səh. 10 ■

Kinematoqrafiya avadanlıqlarının idxal rüsumları niyə ləğv edilmir? ■ səh. 15 ■

Bilik günündə məktəb müəllimlərinə hədiyyə edilən güllər zibil qutularında - daha səmərəli istifadə təklifləri... ■ səh. 14 ■



■ səh. 8 ■

## Paşinyanın sonunu hazırlayan iki faktor - Azərbaycan Ordusu və Amulsar...




Müsavatda qurultayqabağı sədr dartışmaları yenidən başladı... ■ səh. 6 ■

Akademiya rəhbərliyindən ali məktəb dərsliklərinin səviyyəsi barədə kəskin irad... ■ səh. 13 ■




7-ci siniflər üçün «Qarabağ tarixi» alimlər arasında kəskin mübahisə doğurdu... ■ səh. 11 ■

■ səh. 4 ■ Aslan İsmayılovun ermənilərlə əlaqələri barədə yuxarı dövlət orqanlarına müraciət edildi



■ səh. 5 ■ Paşinyanın qeyri-real 2050-ci il konsepsiyası erməni xalqının başını tovlamağın yeni üsulu kimi dəyərləndirilir



■ səh. 12 ■ Azərbaycandan gedən turistlər ölkəmizə gələn turistlərdən düz iki dəfə çox pul xərcləyirlər...



■ səh. 14 ■ Ödənişli oxuyan tələbələr üçün yeni qanun hansı güzəştlər tanıyacaq...



■ səh. 12 ■ Aşura günü toplanan 40 nəfərin qanında sifilis tapılıb



## Dövlət Komissiyası Ermənistanın yalanını ifşa etdi - Azərbaycan Dilqəm Əsgərov və Şahbaz Quliyevin erməni hərbçilərlə qarşılıqlı mübadiləsinə hazırdır

**Azərbaycan Respublikası tərəflərdə saxlanılan əsir-girovların "hamının-hamıya" prinsipi əsasında azad olunması və gələcəkdə əsir-girov götürülən şəxslərin, eyni zamanda meyitlərin 3 gündən gec olmayaraq qaytarılmasını aidiyyəti beynəlxalq təşkilatların vasitəçiliyi ilə 2016-cı ilin aprel ayında Ermənistan Respublikasına təklif edib.**



Bu barədə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından "Trend"ə verilən məlumatında deyilir.

Lakin kütləvi informasiya vasitələrində son günlər yayılmış məlumatlarda bildirilir ki, Ermənistan tərəfi işğal altındakı Kəlbəcər rayonunda 2014-cü ildə girov götürülərək qanunsuz həbs cəzasına məhkum edilmiş Dilqəm Əsgərov və Şahbaz Quliyevin Ermənistan Respublikasının vətəndaşları olan erməni hərbçiləri - Azərbaycan Respublikası ərazisində terror-təxribat əməllərinə görə həbs edilmiş Karen Kazaryan və cəbhənin Füzuli istiqamətində könüllü surətdə Azərbaycan Ordusuna təslim olmuş Araik Kazaryanla qarşılıqlı mübadilələrinə Azərbaycan tərəfinin hazır olmadığı barədə açıqlamalar verib.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası bir daha bildirir ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan rəhbərlərinin, eləcə də xarici işlər nazirlərinin görüşlərində, habelə Dövlət Komissiyasının aidiyyəti beynəlxalq təşkilatlarla 2017-ci və 2018-ci illərdə apardığı müzakirələr zamanı əsir-girovların "hamının-hamıya" formatında azad olunması ilə bağlı Azərbaycan Respublikasının prinsipial mövqeyi dəfələrlə qarşı tərəfə çatdırılıb.

Dilqəm Əsgərov və Şahbaz Quliyevin Karen Kazaryan və Araik Kazaryan ilə mübadilə edilməsinə Azərbaycan tərəfinin hazır olması barədə Dövlət Komissiyası növbəti dəfə aidiyyəti beynəlxalq təşkilatlara 11 sentyabr 2019-cu il tarixdə rəsmi məlumat verib.

Dövlət Komissiyası ölkəmizin beynəlxalq humanitar hüququn norma və prinsiplərinə daim əməl etdiyini yenidən diqqətə çatdırır, 7 sentyabr 2019-cu il tarixdə Rusiya Federasiyası və Ukrayna arasında əsirlərin "hamının-hamıya" mübadiləsini yüksək insanpərvərlik aktı kimi təqdir edir və bu humanizm nümunəsinə uyğun olaraq Azərbaycan və Ermənistan arasında əsir-girovların eyni prinsip əsasında qısa müddətdə azad edilməsinə tərəfdar olduğunu bir daha bəyan edir.

## BŞBPİ sürücünün yol polisini təhqir etməsi ilə bağlı yayılan qalmaqallı videonu araşdırır

**Sosial şəbəkələrdə Bakıda yol polisi ilə sürücü arasında yaranan mübahisənin təfərrüatları Bakı Şəhər Baş Polis İdarəsində araşdırılır. Bu barədə "Trend"ə açıqlamasında Bakı Şəhər Baş Polis İdarəsinin Mətbuat xidmətinin rəhbəri, polis mayoru Elşad Hacıyev deyib.**

E.Hacıyev bildirib ki, araşdırmanın nəticəsi ilə bağlı ictimaiyyətə geniş məlumat veriləcək.

Xatırladaq ki, sosial şəbəkələrdə Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin əməkdaşı olan polis zabitinin sürücüyə qayda pozuntusuna görə protokol tərtib etməsi prosesində polisin sürücü tərəfindən təhqir olunması barədə video yayılıb.

# Prezident İlham Əliyev Belarus Təhlükəsizlik Şurasının dövlət katibini qəbul edib

**Prezident İlham Əliyev sentyabrın 18-də Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib ki, hər səfər qarşılıqlı maraq doğuran məsələlər haqqında danışmaq üçün yaxşı imkandır. Onlar dostluğa, qarşılıqlı anlaşmaya, qarşılıqlı dəstəyə əsaslanır. Əminəm ki, sizin bu səfəriniz də münasibətlərimizin gələcək inkişafına töhfə verəcək.

Prezident deyib ki, bizim siyasi qarşılıqlı fəaliyyətimizin səviyyəsi çox yüksəkdir:"Demək olar ki, dövlət başçılarının, digər rəsmi şəxslərin müntəzəm səfərləri, ticari-iqtisadi sahədə yaxşı irəliləmələr, birgə layihələr, birgə istehsal, təhlükəsizlik sahəsində, o cümlədən hərbi-texniki sahədə əməkdaşlıq mövcuddur. Belə ki, münasibətlərimiz dərin məzmunla zəngindir və nəticəyə yönəlib. Bir də demək istərdim, münasibətlərimizin fərqli xüsusiyyəti ondadır ki, biz qərar qəbul edirik, qərarların həlli yollarını müəyyənləşdiririk və nəticəsini görürük. Düşünürəm ki, bu müsbət dinamika gələcəkdə də saxlanılacaq, münasibətlər uğurla inkişaf etdiriləcək, ölkələrimizə və xalqlarımıza fayda gətirəcək".

Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas görüşə görə təşəkkür edərək deyib ki, "Sizinlə görüşmək, söhbət etmək mənim üçün böyük şərəfdir".

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Əflatun Amaşov QDİƏT PM-in komitə iclasında erməni deputatın "ağzından vurdu"

**Milli Məclisin deputatı, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) İqtisadiyyat, ticarət, texnologiya və ekologiya məsələləri üzrə komitəsinin Türkiyənin Giresun şəhərində keçirilən 53-cü iclasında çıxış edib.**




Ə.Amaşov çıxışında Azərbaycanda aparılan vergi siyasətinin xüsusiyyətlərindən söz açıb, bu sahədəki islahatların müxtəlif detallarına diqqət çəkib. Deputat bildirib ki, ölkənin artan inkişafı xaricdən yeni investorların cəlb edilməsini şərtləndirir. Bu proses isə daha əlverişli vergi mühitinin yaradılmasını qaçılmaz reallığa çevirməkdədir. Azərbaycan dövləti siyasətini məsələyə məhz mövcud kotekstdən baxmaqla qurur, təbii ki, yerli investorların da maraqları nəzərə alınır. "Əldə edilən uğurlara baxmayaraq, nəzərə almaq lazımdır ki, Azərbaycanın vergi sistemi yenidən qurulur", - deyən Ə.Amaşov ölkəmizin bu sahədəki beynəxalq əməkdaşlığının gözlənilən perspektivlərinə də diqqət çəkib.

Deputat, həmçinin, Ermənistan parlamenti sədrinin müavini Vahe Enfiajyanın çıxışında səsləndirdiyi fikirlərinə də münasibət bildirib: "Ermənistan nümayəndəsi siyasi məsələdən söz açdı. Ümumən belə deyim: mənim və ölkəmin mövqeyi bundan ibarətdir ki, Azərbaycan torpaqlarının 20 faizi işğal olunub. On minlərlə insanımız öz yurd-yuvasından qovulub. Minlərlə insanımız qətlə yetirilib. Azərbaycan tərəfi hazırda Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etməyə çalışır. Əgər bu alınmasa, torpaqlarımızı güc yolu ilə geri qaytarmaq haqqını özümüzdə saxlayırıq. Tam əmin olun ki, zərurət yarandığı təqdirdə, bu haqdan istifadə ediləcək".

Qeyd edək ki, Ermənistan parlamenti sədrinin müavini V.Enfiajyan çıxışında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin bir neçə ay öncə Bakıda keçirilmiş sessiyasında Qarabağın Azərbaycan torpağı olmasına dair fikirlərin səslənməsini yolverilməz adlandırmışdı.

# İran səfirliyi aydınlıq gətirdi - qondarma "DQR" komandası Tehrandakı olimpiadada iştirak etmir

**İran qondarma "Dağlıq Qarabağ Respublikası" komandasının Tehranda keçirilən ermənilərin idman olimpiadasındakı iştirakını təkzib edib.**

"Trend"in məlumatına görə, bu barədə məlumat İranın Azərbaycandakı səfirliyinin bəyanatında əks olunub.

Bəyanatda bildirilir ki, İranın Bakıdakı səfirliyi İslam Respublikasının rəsmi idman qurumlarından əldə etdiyi məlumata görə, qondarma respublikanın komandasının olimpiadada iştirak etməsinə heç bir icazə verilməyib.

İran səfirliyi qeyd edir ki, bu olimpiadanın heç bir siyasi aspekti yoxdur və ondan siyasi motivlər üçün istifadə etməyə icazə verilməyəcək.




İran səfirliyinin bəyanatında qeyd olunur ki, İran İslam Respublikası Azərbaycan Respublikasının müstəqillik əldə etdiyi ilk günlərdən və çətin durumlarda həmişə qardaş Azərbaycan xalqı və dövlətinin yanında olub.

Bəyanata əsasən, İran Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayır və bu siyasətində heç bir dəyişiklik etməyəcəyini qeyd edir: "İran və Azərbaycanın dostluğu əbədidir və qeyri-real xəbərlər, şayiələr iki dost və qardaş dövlətin əlaqələrinə xələl yetirə bilməz".

Qeyd edək ki, Tehranda 15 sentyabrda start götürən 51-ci erməni olimpiadasında qondarma "DQR" komandasının iştirak etməsi ilə bağlı KİV-də məlumat yayılıb.

# "Əsrin kontraktı" imzalanmasaydı - Azərbaycanın iqtisadi və siyasi müstəqilliyinin taleyi...

**Düz 25 il əvvəl, 1994-cü ilin 20 sentyabrında Azərbaycanın taleyi ilə bağlı tarixi qərar verildi. Belə ki, "Azəri-Çıraq-Günəşli" dəniz neft-qaz yataqları blokunun kəşfiyyatı və işlənməsi üzrə "Əsrin müqaviləsi" imzalandı.**

Ümummilli lider Heydər Əliyevin böyük səyləri nəticəsində "Əsrin kontraktı"nın imzalanması Azərbaycanın güclü iqtisadi potensialının formalaşdırılmasında müstəsna rol oynadı. Bu, regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə böyük töhfə vermiş oldu. Yalnız xalqın iradəsi, çağırışı və təkidilə 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri əldə edildi.

1994-cü il sentyabrın 20-də Bakıda Qərbin neft şirkətləri ilə bağlanmış neft sazişi yenicə müstəqillik qazanmış Azərbaycanın yeni tarixinin şanlı səhifəsini açdı. Dəyəri 7,4 milyard dollar olan "Əsrin müqaviləsi"ndə Azərbaycanla yanaşı, dünyanın 6 ölkəsinin - ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanının 11 beynəlxalq neft şirkəti iştirak etdi. Onlar tezliklə işçi strukturlar - Rəhbər Komitə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) və Məsləhət Şurası yaratdılar. Həmin strukturlar hüquqi səlahiyyət qazandıqdan, yəni 1994-cü il dekabrın 2-də Azərbaycan Prezidenti xüsusi fərman imzalayandan sonra fəaliyyətə başladılar. 1994-cü il dekabrın 12-də isə Milli Məclis "Əsrin müqaviləsi"ni ratifikasiya etdi.

İlkin hesablamalara görə, "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsində çıxarıla bilən neft ehtiyatı 511 milyon ton olsa da, sonralar yeni qiymətləndirmələrə əsasən, neft ehtiyatı 1.072 milyard ton həcmində müəyyən edilib.

"Əsrin müqaviləsi"ndən sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalandı.

Müqavilənin müddəalarını nəzərdə tutulan müddətdə icra etmək və artan neft hasilatını beynəlxalq bazarlara daşımaq üçün yeni neft kəmərləri tikilib istifadəyə verildi. 1997-ci ilin sonlarında neft Bakı-Novorossiysk kəmərilə Qara dənizə ixrac edilməyə başlandı. 1999-cu ildə Qara dənizin digər limanına - Supsaya Bakıdan neft kəməri çəkilib istifadəyə verilib. 1999-cu ilin dekabrında Azərbaycan nefti ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarılıb. 2002-ci ildə Ümummilli lider Heydər Əliyevin davamlı səyləri nəticəsində "Əsrin müqaviləsi"ndə nəzərdə tutulan, lakin çoxlarının əfsanə və ya kağız üzərində kəmər hesab etdiyi əsas neft kəməri - Bakı-Tiflis-Ceyhanın təməli qoyuldu. Qlobal əhəmiyyət kəsb edən kəmər Azərbaycanın enerji dəhlizinə çevrilməsi istiqamətində mühüm addım idi. 2005-ci il mayın 25-də Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Bakı-Tiflis-Ceyhan neft kəmərinin açılış mərasimi keçirildi, 2006-cı ildə Türkiyənin Ceyhan limanından Azərbaycan neftinin nəqlinə başlandı.

Ümumilikdə, Azərbaycan neftinin Xəzər dənizindən dünya bazarlarına çıxarılması üçün Yer planetinin ekvatorunun uzunluğunun 1/10-i həddində neft kəmərləri tikilib. 2017-ci ilə qədər Azərbaycanın dənizdəki neft ehtiyatlarının işlənməsinə təxminən 33 milyard dollar investisiya qoyulub və "Azəri-Çıraq-Günəşli"dən 3,2 milyard barrel neft hasil edilib. Həmçinin, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan, ümumilikdə, 30 milyard kubmetr səmt qazı hasil edilərək Azərbaycan hökumətinə verilib. "Əsrin müqaviləsi" həm də yeni transmilli enerji layihələrinin həyata keçirilməsində mühüm rola malikdir.

Ümummilli lider Heydər Əliyevin neft strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin siyasi iradəsi və qətiyyəti sayəsində Azərbaycanın liderliyi ilə həyata keçirilən yeni layihələr ölkəmizin iqtisadi qüdrətinin və dünya arenasında siyasi çəkisinin artmasını təmin etdi.

2017-ci ilin sentyabrında "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilə qədər uzadıldı. Sazişin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırıldı və beynəlxalq tərəfdaş şirkətlər Azərbaycan Dövlət Neft Fonduna $3.6 milyard bonus ödəmək öhdəliyi götürdülər. Növbəti 32 il müddətində AÇG-yə 40 milyard dollardan artıq sərmayə qoyulması potensialı var.

Sadalanan faktlardan görünür ki, "Əsrin kontraktı" ölkəmiz üçün çox mühüm əhəmiyyətə malikdir. "Əsrin kontraktı" imzalanmasaydı, Azərbaycanın iqtisadi və siyasi müstəqilliyinin taleyi necə olardı?

Politoloq Qabil Hüseynli qəzetimizə bildirdi ki, bu gün Azərbaycan iqtisadiyyatının hər hansı bir inkişaf sferasına baxsanız, orada "Əsrin müqaviləsi"nin dəstəyini görə bilərsiniz: "Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan "Əsrin müqaviləsi" bu gün həqiqətən uğurlu bur strategiya kimi qəbul edilir. 1990-cı illərdə Azərbaycanın müstəqilliyi təhlükə altında idi, bir tərəfdən müharibə davam edirdi, digər tərəfdən isə iqtisadiyyat tamamilə dağılmış və ölkədə siyasi anarxiya hökm sürürdü. Məhz belə tarixdə Azərbaycanın müstəqilliyini, dövlətini qoruyub saxlamaq, bütövlükdə, ölkə qarşısında mühüm bir vəzifə idi. O zamanlar hər kəs olum və yaxud da olmamaq haqqında dilemma qarşısında qalmışdı. Belə bir vəziyyətdə iqtisadiyyatın güclənməsi, eləvə olaraq vəsaitlərlə təmin edilməsi Azərbaycanın inkişafı üçün çox mühüm rol oynayırdı. Bu cəhətdən baxsaq, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 20 sentyabr 1994-cü ildə bağlanan "Əsrin müqaviləsi", bütövlükdə, Azərbaycan dövlətinin, xalqının gələcək taleyini həll etdi. Bu müqaviləyə, sadəcə, bir neft müqaviləsi kimi baxmaq lazım deyil. Çünki o zaman, o siyasi şəraitdə həmin geosiyasi kontekstdə biz baxsaq, mərhum Heydər Əliyevin nüfuzuna əsaslanan belə bir müqavilənin olması məhz Azərbaycan xalqının, bütövlükdə, növbəti inkişaf yolunun hansı istiqamətdə olduğunu göstərdi. Kifayət qədər dəqiqliklə və incəliklə imzalanmış müqavilənin təfərrüatları, eyni zamanda, həmin an bölgədə olan bütün güclərin bu müqaviləyə cəlb olunması ilə Azərbaycanın müstəqilliyində sanki bir kompromisin əldə olunması böyük siyasi ustalıq tələb edirdi.



Təbii ki, 1970-80-ci illərdə Azərbaycan neftinin kəşfiyyatı və potensialının yaradılması ilə bağlı xeyli iş görülmüşdü. Amma o zaman Azərbaycanda texnika və texnologiyanın olmaması, dövlətin yeni müstəqillik əldə etməsi və heç bir iqtisadi rıçaqların olmaması Xəzər dənizində işlərə birbaşa xarici partnyorların cəlb olunmasını və investisiyaların gəlməsini şərtləndirirdi. Atılan bu addım sonradan Azərbaycanın, bütövlükdə, iqtisadiyyatına külli miqdarda vəsaitin gəlməsini təmin etdi. Bu müqavilənin bizim həm iqtisadi, həm də siyasi müstəqilliyimizdə oynadığı rol danılmazdır. Çünki iqtisadiyyatı güclü olan ölkənin siyasi dayaqları da möhkəm olur".

***Məhəmmədəli QƏRİBLİ***

**AzNews.az xəbər portalının baş redaktoru Taleh Şahsuvarlı üç dövlət qurumuna sosial media hesabı vasitəsilə müraciət edib. Baki-xeber.com AzNews.az-a istinadən T.Şahsuvarlının müraciətini təqdim edir:**



# Aslan İsmayılovun ermənilərlə əlaqələri barədə yuxarı dövlət orqanlarına müraciət edildi

*"Aslan İsmayılovun və onun oğlunun Kristina Paşuanın timsalında erməni diasporu ilə açıq və təkzibolunmaz əlaqələri müvafiq dövlət orqanları tərəfindən araşdırılmalıdır"*

"Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov cənablarına!

Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov cənablarına!

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyev cənablarına!

Hörmətli Baş prokuror!

Hörmətli nazir!

Hörmətli DTX rəisi!

Mən, Şahsuvarov Taleh Novruz oğlu 1995-ci ildən etibarən jurnalistika sahəsində fəaliyyət göstərirəm. Hazırda Azərbaycanda ən oxunaqlı saytlardan biri olan AzNews.az xəbər portalının rəhbəriyəm. Portalımız Azərbaycan Prezidenti İlham Əliyevin siyasi kursunu ardıcıl müdafiə edən informasiya resurslarından biridir və kollektivimiz öz fəaliyyətində hər zaman milli maraqlarımızı ön planda tutur. Sizə müraciət etməkdə məqsədim diqqətinizi milli maraqlarımıza, ərazi bütövlüyümüzə və dövlət təhlükəsizliyimizə birbaşa təhdid yaradan olduqca önəmli bir fakta cəlb etməkdir.

Vaxtilə Azərbaycanda vəkillik fəaliyyəti ilə məşğul olmuş, fəaliyyətində yol verdiyi nöqsanlara görə Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvlüyündən xaric edilmiş Aslan İsmayılov bu günlərdə öz "Facebook" səhifəsində bir məlumat paylaşdı. Həmin məlumatda bildirilirdi ki, Gürcüstanda "Yeni Liderlər Təşəbbüsü" adlı bir layihə həyata keçirilir və həmin layihənin rəhbəri Kristina Puşau adlı ABŞ vətəndaşı, Azərbaycan üzrə koordinatoru Ziyəddin Aslan oğlu İsmayılovdur. Bu layihə ilə bağlı müxtəlif kütləvi informasiya vasitələrində məlumatlar dərc olunub. O cümlədən, Aslan İsmayılovun oğlu Ziyəddin İsmayılov da sosial şəbəkədə Kristina Puşau ilə birgə çəkilmiş şəkillərini paylaşaraq layihədə koordinator olaraq iştirak etdiyini təsdiqləyib.

Mən bu barədə jurnalist araşdırması apardım və məlum oldu ki, layihənin rəhbəri Kristina Puşau 2012-ci ildə ABŞ-ın Los-Anceles şəhərində yerləşən Cənubi Kaliforniya Universitetinin bakalavr pilləsini bitirib. Kristina Puşau orada təhsil alarkən universitetdəki Erməni Tələbələr Assosiasiyasının rəhbəri olub. Cənubi Kaliforniya Universiteti Erməni Tələbələr Assosiasiyasının "Facebook" səhifəsi mövcuddur. Bu səhifəyə göz gəzdirdikdə məlum olur ki, həm Kristina Puşaunun rəhbəri olduğu müddətdə, həm də ondan sonra təşkilat Azərbaycan və Türkiyə əleyhinə bir sıra aksiyalar təşkil edib. Həmin təşkilat ABŞ-dakı erməni diasporunun beyin mərkəzi olan Erməni Araşdırmalar İnstitutu ilə sıx əməkdaşlıq etməklə qondarma "erməni genosidi" ilə bağlı universitetdə çox sayda tədbir keçirib, o cümlədən, 2016-cı ildəki "Aprel döyüşləri"ndə Azərbaycana qarşı açıq təbliğat aparıb.

Odur ki, Cənubi Kaliforniya Universitetindəki Erməni Tələbə Assosiasiyasına rəhbərlik etmiş şəxs olaraq Kristina Puşaunun həyata keçirdiyi layihənin rəsmi məqsədi nə olursa-olsun, mahiyyətcə Azərbaycan Respublikasının milli maraqlarına, dövlət təhlükəsizliyinə və ərazi bütövlüyünə zidd olduğu aşkardır. Maliyyə qaynaqları qaranlıq olan bu layihənin ABŞ-dakı erməni diasporunun maraqlarına xidmət etməsi, o cümlədən, Ermənistan xüsusi xidmət orqanlarının dəstəyilə reallaşdığını da təxmin etmək çətin deyil.

Bütün hallarda, hesab edirəm ki, Aslan İsmayılovun və onun oğlunun Kristina Paşuanın timsalında erməni diasporu ilə açıq və təkzibolunmaz əlaqələri müvafiq dövlət orqanları tərəfindən araşdırılmalı və bu barədə cəmiyyətə rəsmi açıqlama verilməlidir.

Araşdırma üçün mənə məlum olan və saytımızda yayınlanmış faktları qaynaqları ilə birgə yüksək diqqətinizə təqdim edirəm: https://www.aznews.az/news/political_debate/238330.html

*Hörmətlə,*
***Taleh Şahsuvarlı***
***AzNews.az xəbər portalının baş redaktoru"***

---

**İyirmi beş il əvvəl, 20 sentyabr 1994-cü ildə Azərbaycan və altı ölkəni təmsil edən 11 neft şirkətindən ibarət konsorsium Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında saziş imzalayıblar. Bu, tarixə "Əsrin müqaviləsi" adı ilə düşüb.**



# Bəzi dövlətlərin şübhə etdiyi "Əsrin kontraktı"ndan sonrakı işlər - 19 dövlət, 26 neft sazişi...

***Fuad İbrahimov:** "Azərbaycan uğurlu siyasət yeridə bildiyi üçün, 19 ölkənin 41 neft şirkəti ölkəmizlə çoxsaylı saziş imzalayıb"*

O vaxt bəzi dövlətlər, müəyyən xarici dairələr sözügedən sazişin imzalanmasından sonra görüləcək işlərə şübhə ilə yanaşırdılar. Ancaq onların bu şübhələri tamamilə fiaskoya uğradı. "Əsrin müqaviləsi"ndən sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalandı. Müqavilənin müddəalarını nəzərdə tutulan müddətdə icra etmək və artan neft hasilatını beynəlxalq bazarlara daşımaq üçün yeni neft kəmərləri tikilib istifadəyə verildi. 1997-ci ilin sonlarında neft Bakı-Novorossiysk kəməri ilə Qara dənizə ixrac edilməyə başlandı. 1999-cu ildə Qara dənizin digər limanına - Supsaya Bakıdan neft kəməri çəkilib istifadəyə verilib. 1999-cu ilin dekabrında Azərbaycan nefti ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarılıb. 2002-ci ildə Bakı-Tiflis-Ceyhanın təməli qoyuldu. Qlobal əhəmiyyət kəsb edən kəmər Azərbaycanın enerji dəhlizinə çevrilməsi istiqamətində mühüm addım idi.

2005-ci il mayın 25-də Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Bakı-Tiflis-Ceyhan neft kəmərinin açılış mərasimi keçirildi, 2006-cı ildə Türkiyənin Ceyhan limanından Azərbaycan neftinin nəqlinə başlandı.

"Əsrin müqaviləsi"ndən sonra imzalanan 26 saziş nəticəsində neft-qaz sektoruna qoyulan sərmayələr daha da artdı. Həm neft, həm də qaz hasilatı yüksəldi. Neft emalı sənayesi yenidən quruldu. Bu sektorla bağlı çoxsaylı müəssisə tikildi və yenidən müasir dövrün tələblərinə uyğun olaraq quruldu.

Bütövlükdə, sözügedən müqavilədən sonra 26 sazişin imzalanması nəyin göstəricisi idi?

*"Bütün bunların hamısının həyata keçirilməsi üçün incə bir xarici siyasət yeridildi"*

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, bu, Azərbaycana inamın göstəricisi idi: "Bizdən də neft ehtiyatına görə zəngin ölkələr var, amma həmin ölkələrin neft sektoruna xarici sərmayə qoyulmur. Hansısa zəngin təbii ehtiyata malik olmaqla iş bitmir. Əsas məsələ odur ki, dövlət onu iqtisadi dövriyyəyə cəlb edə bilsin. Onu ölkənin iqtisadi inkişafının xeyrinə çevirə bilsin. Azərbaycan uğurlu siyasət yeridə bildiyi üçün, 19 ölkənin 41 neft şirkəti ölkəmizlə çoxsaylı saziş imzalayıb. Azərbaycan etibarlı tərəfdaş olduğuna görə bir belə ölkə bizimlə bu qədər müqavilə bağlayıb. Uğurlu xarici siyasət olmasaydı, o zaman dünyanın böyük neft nəhəngləri Azərbaycanın enerji sektoruna on milyardlarla sərmayə qoymazdılar. Azərbaycanın uğurlu siyasət yeritməsinin nəticəsidir ki, çoxsaylı saziş imzalandı və ölkəyə böyük sərmayə axını başladı. Bir sıra ölkələr öz neft və qaz resurslarını lazımi səviyyədə iqtisadi dövriyyəyə cəlb edə, dünya bazarına çıxara bilmir. Bir çox dünya eksperti rişxəndlə deyirdi ki, Bakı-Tiflis-Ceyhan neft kəməri reallaşmayacaq.

**Ən azından, Rusiya buna imkan verməyəcək. Ancaq bunların heç biri özünü doğrultmadı. BTC ilə yanaşı, digər kəmərlər də çəkildi. Azərbaycan "Cənub Qaz Dəhlizi"nin aparıcı koordinatorudur. Bütün bunların hamısının həyata keçirilməsi üçün incə bir xarici siyasət yeridildi. Azərbaycan da bunu edə bildi".**

***Vidadi ORDAHALLI***




# ABŞ-ın Erməni Komitəsi MKİ-nin adından mübahisəli "Qarabağ sənədi" yayıb...

## *Akif Nağı: "İstənilən halda, ABŞ bu məsələyə aydınlıq gətirməlidir"*

**Amerika Erməni Milli Komitəsi öz "Twitter" səhifəsində ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) Dağlıq Qarabağla bağlı gizli məlumatlarını yayımlayıb.**

Erməni mediası xəbər verir ki, 1988-ci ildə "Qafqazdakı iğtişaşlar və millətçilik təhlükəsi" adlı sənəd guya Qarabağdakı etnik qarşıdurmaya aiddir.

"1920-ci illərdə Ermənistanın mədəni və dini mərkəzi olan Dağlıq Qarabağın Azərbaycana verilməsi ermənilərin daimi, lakin böyük məyusluq mənbəyinə çevrilib"- sənəddə deyilir.

Amerika Erməni Milli Komitəsi sənədi böyük sevinclə yayaraq təfərrüatlara diqqət çəkib. Guya sənəddə qeyd olunur ki, Azərbaycan əhalisinin sürətlə artması fonunda gənc respublika müxtəlif sahələrdə üzləşdiyi problemləri həll edə bilməyib. Bu da erməni əhalisinə hücumlarda özünü göstərməyə başlayan ictimai narazılığa səbəb olub.

Sənəddə, eyni zamanda, Dağlıq Qarabağ Muxtar Vilayətinin 1923-cü ildə ermənilərin məskunlaşdığı ərazidə yaradıldığı, burada 89 faiz əhalinin ermənilərdən ibarət olduğu qeyd olunub.

Bu sənədlə bağlı ekspertər nə düşünür və ABŞ rəsmən buna münasibət bildirməlidirmi?

Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu tip məlumatları yayan mənbə ermənilərdisə, mütləq dəqiqləşdirilməlidir: "Çünki, adətən, onlar məsələlərin mahiyyətini təhrif edirlər. Bəzən hətta sənədləri də saxtalaşdırılmış halda verirlər. Sözügedən sənəd də çox müəmmalıdır. Məzmunda qeyd edilənlər, birmənalı olaraq, yalandır. Çünki Dağlıq Qarabağ daim Azərbaycanın tərkibində olub və orada ermənilərə bizim tərəfdən heç bir hücumlar olmayıb. Hər halda, ABŞ səfirliyi və ya oranın rsəmi dairələri bu sənədə aydınlıq gətirməlidirlər. Ancaq məsələnin başqa bir aspekti də var. Münaqişə hələ SSRİ-nin vaxtında yaranandа belə, Rusiya çalışırdı ki, konflikti sülh yolu ilə nizama salsın. Ancaq ABŞ qızışdırıcı mövqe tuturdu və əsasən də ermənilərin mövqeyini dəstəkləyirdi. Ola bilsin ki, SSRİ-nin dağılması prosesini sürətləndirmək üçün belə addımlar atırdı. 1989-ci ildə, münaqişənin ilk illərində ABŞ Konqresində bir qətnamə qəbul edildi. Həmin sənəddə qeyd edilirdi ki, ABŞ ermənilərin "azadlıq mübarizəsini" dəstəkləyir. Yəni bu fakt ABŞ-ın həmin zaman mövqeyini əks etdirirdi. Təbii ki, onda bizim ABŞ-a təsir gücümüz indiki kimi deyildi. Onların ABŞ-da oturuşmuş diasporu vardı. Sonra da 1992-ci ildə qəbul olunan "Azadlığa dəstək aktı"na "907-ci düzəliş" ABŞ tərəfindən təsadüfən qəbul edilmədi. Bu mənada həmin sənədin inandırıcı olduğu qənaətinə də gəlmək olar. İstənilən halda, ABŞ bu məsələyə aydınlıq gətirməlidir. Ən maraqlısı budur ki, həmin sənəd ermənilərin əlinə niyə məhz indi düşüb və onu yaymaqda məqsəd nədir?"

*"Ən maraqlısı budur ki, həmin sənəd ermənilərin əlinə..."*

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Baş nazir Nikol Paşinyan Ermənistan 2050 - Strateji İnkişaf sənədi irəli sürüb. Plana görə, guya 2050-ci ilə qədər əhalinin sayını 5 milyona çatdırmaq, 1,5 milyon yeni iş yeri açmaq, insanların məşğulluğunu 2,5 milyon nəfərə çatdırmaq, yoxsulluğu ləğv etmək, döyüş qabiliyyətinə görə dünyanın 20 ən güclü ordusunun siyahısına daxil olmaq, turistlərin sayını 15 milyon nəfərə çatdırmaq və s. mümkün olacaq.**

# Paşinyanın qeyri-real 2050-ci il konsepsiyası erməni xalqının başını tovlamağın yeni üsulu kimi dəyərləndirilir

## *Əli Orucov: "Paşinyanın irəli sürdüyü sənəd qeyri-real əsaslara söykənir və reallıqla heç bir əlaqəsi yoxdur"*



Aydın məsələdir ki, sözügedən plan qeyri-real əsaslara söykəndiyi üçün bunu həyata keçirmək mümkün olmayacaq. Ermənistanın özündə belə strateji sənəddə verilən vədlərin reallıqdan uzaq olduğunu qeyd edir, bu zaman mövqelərini beynəlxalq təşkilatlar tərəfindən verilən proqnozlarla əsaslandırırlar. Sənəddə Ermənistanın maliyyə vəziyyəti ilə bağlı qeyri-real hədəflər müəyyən olunub. Mühüm bəndlərdən biri işsizliyin ortadan qaldırılması ilə bağlıdır. Ancaq Ermənistanın ağır iqtisadi şəraiti və maliyyə çatışmazlığı bu günədək işsizliyin həcminin yüksək qalmasına səbəb olub.

Müstəqilliyin ilk illərində təkrəqəmli işsizlik səviyyəsi sonrakı dövr ərzində artaraq 2018-ci ildə 17,71 faiz olub. Bu rəqəmlər rəsmidir, ekspertlər isə qeyd edirlər ki, real işsizlik səviyyəsi daha böyükdür.

Asiya İnkişaf Bankı Ermənistandakı yoxsulluq səviyyəsini Əfqanıstan və bir sıra geridə qalmış ölkələrlə müqayisə edir. Beynəlxalq Valyuta Fondunun hesablamalarına əsasən, Ermənistanın ümumi dövlət borcunun həcminin artacağı proqnozlaşdırılır. Erməni diasporu və ölkə xaricinə miqrasiya edən işçilərin ölkəyə yolladıqları maliyyə vəsaitləri onların ailələrinə yoxsulluq səviyyəsi ilə nisbi mübarizə aparmağa kömək edir.

Ümumiyyətlə, Azərbaycanın işğal olunmuş ərazilərini azad etməyənə qədər Ermənistanın heç bir inkişaf perspektivi yoxdur. Çünki Ermənistanın açıq dənizə çıxışı yoxdur və bu ölkə 4 ölkə ilə quru sərhədinə malikdir. Onlardan da 2-si bağlıdır.

Ona görə də Paşinyanın elan etdiyi inkişaf sənədi reallıqla uzlaşmır və tamamilə qeyri-realdır. Orada irəli sürülən hədəflərə çatmaq mümkün deyil. Çünki orada yazılanların əksəriyyəti xülyadır. Bu səbəbdən onları yerinə yetirmək mümkün deyil. Paşinyanın bu cür şirnikləndirici tezislərlə çıxış etməkdə əsas məqsədi Ermənistanda ictimaiyyəti uzaq bir dövrün hədəfi ilə aldatmaqdır. Ölkə ictimaiyyəti də buna inanan deyil. Ona görə ki, mövcud reallıq başqadır. Məsələ ondadır ki, Paşinyan Baş nazir olandan sonra ölkədə iqtisadi artım müşahidə edilmir, demoqrafik göstəricilər əvvəlki kimi mənfiyə doğru dəyişməkdədir, ölkəni tərk edənlərin sayı azalmır, xarici borc artır və s. Ölkə ictimaiyyəti də bütün bunların fərqində olduğuna görə Paşinyanın irəli sürdüyü proqrama inanmır.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, Nikol Paşinyanın yeritdiyi siyasərt populizm üzərində qurulub: "O, istənilən sahədə ancaq populizmə söykənən açıqlamalarla çıxış edir. Hakimiyyətə gəlməzdən əvvəl və ondan sonra populist xarakterli açıqlamalarla çıxış etməyə başladı. Hakimiyyətə gəldikdən sonra verdiyi vədlərin bir qismi unuduldu. Bu zaman Paşinyan erməni ictimaiyyətini aldatmaq üçün daha uzaq hədəflərə hesablanmış proqramlarla çıxış etməyə başladı. Məsələn, sözügedən proqramda ÜDM həcminin qarşıdan gələn 30 il ərzində təxminən 15 dəfə artımının planlaşdırıldığı göstərilir. Bunun özü çox gülüncdür. Çünki beynəlxalq və yerli ekspertlər bunu şişirdilmiş, heç bir perspektivi olmayan hədəf adlandırıblar. Ermənilər də daxil olmaq şərtilə, əksər ekspertin fikrincə, hər hansı iqtisadi əsaslara söykənməyən, beynəlxalq təşkilatların proqnozlarında təsdiqini tapmayan bu hədəf reallıqdan uzaq xülyadan başqa bir şey deyil.

Beynəlxalq təşkilatların verdiyi proqnozlara əsaslanmayan inkişaf konsepsiyası qısamüddətli dövrə hədəflənmiş populist addım hesab olunur. Sənəddə göstərilən hədəflərlə beynəlxalq qurumların proqnozları arasında ciddi fərqlər var. Strateji sənəddə 2024-cü ildə ÜDM-in ümumi həcminin 22 milyard dollar, adambaşına düşən miqdarının isə təxminən 6,6 min dollar olacağı qeyd edilsə də, BVF-nin proqnozlarına əsasən, ÜDM-in həcmi 17 milyard dollar, adambaşına düşən miqdarı isə 5,7 min dollar təşkil edəcək. Çoxsaylı belə arqument gətirmək olar. Bütün bunları ona görə qeyd etdim ki, Paşinyanın irəli sürdüyü sənəd qeyri-real əsaslara söykənir və reallıqla heç bir əlaqəsi yoxdur".

*"Sənəddə göstərilən hədəflərlə beynəlxalq qurumların proqnozları arasında ciddi fərqlər var"*

***Vidadi ORDAHALLI***

# Müsavatda qurultayqabağı sədr dartışmaları yenidən başladı...

**Müsavat Divanı partiyanın növbəti qurultayının oktyabrın 12-də keçirilməsi barədə qərar qəbul edib. Partiyanın qurultayında yeni başqan seçkiləri də keçiriləcək. Artıq partiyanın iki tanınmış funksioneri başqanlığa namizədlik iddialarını ortaya qoyub. Söhbət Tofiq Yaqublu və Yadigar Sadıqlıdan gedir.**




İndi başqan Arif Hacılıya, həm də bir-birinə alternativ olacaq hər iki şəxs partiyada çəkiyə malikdir. Hər iki namizəd məhbəs həyatı yaşayıb və bir qədər Arif Hacılıdan fərqli düşüncələrə sahib olduqlarını bəyan edirlər.

"Bakı-Xəbər" olaraq başqanlığa namizədliyini irəli sürmüş hər iki şəxslə əlaqə saxlayıb, onların mövzu ilə bağlı münasibətlərini öyrəndik.

Partiyanın Divan üzvü, başqanlığa namizəd Yadigar Sadıqlı qəzetimizə açıqlamasında bildirdi ki, hələ icra hakimiyyətindən yerlə bağlı cavab gözləməli olduqlarını nəzərə alsaq, namizədlərə təbliğat üçün az vaxt qalır: "Əvvəl də bildirdiyim kimi, öz namizədliyimi irəli sürəcəm. Partiyanın son 5 ildə idarə olunmasını qənaətbəxş hesab etmirəm və bunu Müsavatın reytinqinin zəifləməsində də müşahidə etmək olar. Hesab edirəm ki, mənim başqan seçilməyim təkcə Müsavata deyil, ümumilikdə, demokratik düşərgədə ab-havanı kökündən dəyişər, yeni qüvvələrin axınına xidmət edər. Bəzən deyirlər ki, başqanı müsavatçılar seçəcək, başqaları qarışmasın. Əlbəttə, müsavatçıların səsi həlledicidir, həm də siyasi baxımdan önəmlidir. İllərlə çiyin-çiyinə mübarizə apardığın insanların etimadını qazanmaq böyük qürurdur.

Amma Müsavat üzvü olmayanların münasibəti də heç əhəmiyyətsiz deyil. Əvvəla rəğbət bəslədikləri, inandıqları insanın başqan olması onları üzvlüyə həvəsləndirə bilər. İkincisi, hər bir partiyanın əsas hədəfi vətəndaşların səsi ilə hakimiyyətə gəlməkdir. Buna isə təkcə partiya üzvlərinin səsi ilə nail ola bilməzsən, bəzilərinin "siz qarışmayın" dedikləri o insanların səsi həlledici olacaq. Partiyanın nüfuzu, gücü, perspektivi, ictimai maraqlılığı elə o bitərəflərin münasibətindən asılıdır. Buna görə də müsavatçılar öz seçimlərində bu amili də nəzərə almalıdırlar".

Yadigar Sadıqlı hesab edir ki, partiyaya marağın azalması indiki başqanın yürütdüyü yanlış idarətmə ilə bağlıdır: "Mən

## *Yadigar Sadıqlı: "Hazırda bütün parametrlərə görə Müsavatın başqanlığına mən daha çox cavab verirəm"*

## *Tofiq Yaqublu: "Ola bilər ki, kimlərsə nəticələrdən narazı qalıb partiyanı tərk etsin"*

Müsavatın əvvəlki nüfuzunu özünə qaytarmağı bacaran başqan olacam. Başqa alternativlərin olması məni narahat etmir. Aydındır ki, namizədlərin sayı artdıqca, seçilmək şansı bir qədər çətinləşir. Ancaq belə bir iddia ortaya qoymaq hər kəsin hüququdur. Hesab edirəm ki, hazırda bütün parametrlərə görə Müsavatın başqanlığına mən daha çox cavab verirəm. Hesab edirəm ki, partiyanın uğuru həm də başqanın ictimai nüfuzundan asılıdır. İnanıram ki, qalib gələcəm və Müsavat növbəti dönəmə mənim başqanlığımla gedəcək".

Başqanlığa iddialı olan digər namizəd Tofiq Yaqublu isə "Bakı-Xəbər"ə bildirdi ki, başqanlığa iddiasını ortaya qoymasında hansısa qeyri-adilik görmür: "Bu heç də o demək deyil ki, Müsavatın başqanı mütləq dəyişəcək. Biz nizamnamənin verdiyi imkanlardan istifadə edib belə bir iddianı ortaya qoymuşuq. İstənilən halda, insanlar fəqrli düşünürlər. Heç bir halda, insanlar identik ola bilməz. O cümlədən mən də, bütünlüklə, Arif Hacılı kimi düşünə bilmərəm. Müəyyən ictimai, siyasi, sosial məsələlərə bizim fərqli baxışlarımız ola bilər. Bu, bütün dünyada belədir. Fərqli baxışın olması normaldır. Baxışlarda fərqlilik olmasaydı, mən heç namizədliyimi də irəli sürməzdim".

"Belə iddialar var ki, Müsavatda Arif Hacılı başqan qalarsa, partiyada ciddi parçalanmalar olacaq, mümkündürmü" sualına Tofiq Yaqublunun cavabı belə oldu: "Prinsipcə, hər şey mümkündür. İnsan faktoruna bağlı olan məsələdir. Ola bilər ki, kimlərsə nəticələrdən narazı qalıb partiyanı tərk etsin. Hazırda isə şəxsən mənim özüm belə bir əsasın olduğunu düşünmürəm. Hesab edirəm ki, Müsavatın qurultayından sonra partiya kimin başqan olmasından asılı olmayaraq, öz yoluna inamla davam edəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Rusiyanın Ermənistana satdığı qazın 200 dollara qaldırılması vaxtı yetişir - hadisə qışa təsadüf edə bilər

**Rusiya hökuməti tezliklə erməni tərəfinə xoşagəlməz sürprizlər bəxş edə bilər. Fakt budur ki, Rusiya tərəfinin bu dəfə Ermənistan əhalisi üçün də qazın qiymətini qaldırmaq niyyətində olduğu barədə şayiələr yayılıb. Bu barədə ölkənin "Johovurd" gündəlik qəzeti yazıb.**



Qəzet yazır ki, bir müddət əvvəl Rusiya hökuməti Ermənistan hakimiyyətinə qazın 30 faiz artacağı barədə işarə edib: "Hər halda, Rusiya Prezidenti Vladimir Putin Ermənistana səfər edərsə, o zaman Baş nazir Nikol Paşinyan onunla dərhal qazın qiymətilə bağlı danışıqlar aparmaq niyyətindədir. Digər tərəfdən, erməni tərəfi Rusiya hökuməti ilə danışıqlar yolu ilə 30 faiz artımın qarşısını almağa nail ola biləcəyinə ümid edir. Lakin ekspertlərin fikrincə, Ermənistan əhalisi üçün qazın qiymətinin artması qaçılmazdır".

Qəzetə açıqlama verən Paşinyanın mətbuat katibi Vladimir Karapetyan isə bu barədə konkret danışmaqdan yayınıb: "Biz mütəmadi qazın qiyməti haqqında danışırıq. Amma burada maraq doğuran heç bir problem yoxdur. Nəticə danışıqlardan sonra bəlli olacaq".

Digər erməni mətbuat orqanları isə yazırlar ki, qiymətlər artacaq deyə, Ermənistan hakimiyyəti Rusiya ilə qaz qiymətləri mövzusunda apardığı danışıqların detallarını gizlədir. Məlumata görə, Rusiya tərəfi 1 yanvar 2020-ci ildən etibarən qaz qiymətlərini 200 dollara qədər artırmaq niyyətindədir. Qeyd edək ki, hazırda Rusiya Ermənistana qazı 165 dollara satır.

Proseslərin gedişi belə göstərir ki, iki ölkə arasında münasibətlər bir qədər gərgin olduğundan, Paşinyan hakimiyyətini yeni sürprizlər gözləyir. Yəni çox güman ki, gələn ilin yanvarından Ermənistana satılan qazın qiyməti qaldırılacaq.

Maraqlıdır, bəs ekspertlərin bununla bağlı fikirləri nədən ibarətdir?

## *Elşən Manafov: "Gələn il Ermənistana satılan qazın qiymətinin qaldırılması ehtimalı yüksəkdir"*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Elşən Manafov buna bir neçə kontekstdən yanaşdı: "Bir qayda olaraq, iki ölkənin münasibətlərində müəyyən məqamlar Rusiya siyasi elitasını narahat edəndə, bu ölkənin maraqlarına cavab verməyən tendensiya özünü büruzə verəndə Kreml "Qazprom"un Ermənistana təsir vasitələrindən istifadə etməyə çalışıb. Ermənistanın "Qazprom"la münasibətlərində belə hallar əvvəllər də yaşanıb. Nəzərə almaq lazımdır ki, Rusiya Ermənistana qazı ucuz satır. Hətta Belarusa satılan qazdan da ucuzdur. Ancaq Paşinyan hakimiyyətinin regional siyasəti, daha çox Qərbə meyllənməsi Kremldə narazılıq doğurur. Bu mənada, Putinin sabiq prezident Köçəryanı təbrik etməsi, Rusiyadakı iş adamlarının Paşinyana dəstək verməkdən imtina etməsi təsadüfi deyil. Bütün bunlar Paşinyan hakimiyyətinin siyasətindən narazılığın göstəricisidir. Paşinyanın bəzi qeyri-ordinar davranışları, o cümlədən, Qarabağla bağlı verdiyi açıqlamalar Kremli mənmun etmir. Bütün bunlar Rusiya hakimiyyətində müəyyən qıcıq yaradır.

## *"Paşinyan hakimiyyətinin regional siyasəti, daha çox Qərbə meyllənməsi Kremldə narazılıq doğurur"*

Ona görə də Rusiya Ermənistana təzyiq göstərmək üçün müxtəlif rıçaqları işə sala bilər. Onlardan biri də qazın qiymətidir. Çünki Ermənistanın Rusiya və İrandan olan enerji asılılığı göz qabağındadır. O baxımdan gələn il Ermənistana satılan qazın qiymətinin qaldırılması ehtimalı yüksəkdir. Paşinyan bundan sonra da Moskvanı məyus edən addımlar atarsa, o zaman Ermənistana yönəlik digər təsir rıçaqları işə salına bilər".

***Vidadi ORDAHALLI***

# ABŞ-ın ilk zərbələr ssenarisi, İranın ilk cavab zərbələri ssenarisi...

## *Zərdüşt Əlizadə: ”Bilir ki, belə həmlə edərsə, ilişib o problemin içində qalar”*

**Məlum olduğu kimi, Səudiyyə Ərəbistanının neft nəhəngi "Aramco" şirkətinə məxsus iki zavoda gecə saatlarında hava hücumu olub. Pilotsuz təyyarə ilə edilən hücum nəticəsində zavodlarda böyükmiqyaslı yanğın çıxıb.**

Qeyd edək ki, bu, husilərin "Aramco"ya ilk hücumu deyil. İyul ayında da paytaxt Ər-Riyaddakı "Aramco" obyektlərindən birində yanğın çıxmış, şirkət yanğının səbəbini "texniki qəza" kimi təqdim etsə də, Yəməndəki husilər açıqlama verərək, hadisəni onların törətdiyini bəyan etmişdilər.

Ümumiyyətlə, şiəliyin Zeydiyyə məzhəbinə mənsub olan husi camaatı və Yəmən problemi Səudiyyə Ərəbistanı qurulandan bəri bu ölkənin ən böyük xofuna çevrilib. Səudiyyə Ərəbistanı liderlərinin Ərəb yarımadasının ən yoxsul ölkəsi sayılan Yəməndən bu qədər qorxması da, təbii ki, səbəbsiz deyil. Yəmən nə qədər kasıb olsa da, yarımadanın ən çox əhaliyə malik və demoqrafik olaraq sürətlə artan ölkəsidir. Eyni zamanda, həmin ölkənin İrandan böyük dəstək aldığı bildirilir. Hazırda Yəmənin əhalisinin 32 milyonu keçdiyi təxmin olunur. Ərəb yarımadasının əhalisinə görə ikinci, iqtisadi potensialına görə birinci ölkəsi olan Səudiyyə krallığının əhalisi isə 28.5 milyon civarındadır.

ABŞ Səudiyyə Ərəbistanındakı neft zavodlarını partladan pilotsuz təyyarələrin haradan qalxdıqlarını bildiklərini bəyan edib. ABŞ keçən həftə "Saudi Aramco" şirkətinin neft zavodlarının İran tərəfindən partladıldığını iddia edib. Təxribatda 20-dən çox silahlı pilotsuz təyyarədən istifadə edildiyini bildirib. ABŞ dövlət rəsmiləri hazırda dəlillərin toplandığını və yaxın günlərdə təxribatın bütün dəlilləri ilə ictimaiyyətə təqdim ediləcəyini açıqlayıblar.

İranın Ali dini lideri Əli Xameneyi bildirib ki, İran hökumətinin ABŞ-la danışıqlar aparmaq fikri yoxdur: "İran və ABŞ hakimiyyəti arasında istənilən səviyyədə danışıqlar olmayacaq. Bu cür əlaqələrin olması ABŞ-ın İrana təzyiq siyasətinin uğuru deməkdir".

İran ABŞ-a etiraz notası da verib. Etiraz notası İsveçrə səfirinə təqdim edilib. Notada Səudiyyə Ərəbistanının "Saudi Aramco" neft şirkətinin obyektlərinə edilən hücumda İranın rolunun olmadığı bildirilib və bu məsələ təkzib olunub. Qeyd olunub ki, İran əleyhinə hər hansı bir addım atılarsa, ölkə tez bir zamanda buna cavab verəcək.

Xatırladaq ki, İsveçrə səfiri Tehranda həm də ABŞ-ın maraqlarını müdafiə edir.




## *”Tramp seçilmək istəyir, bu səbəbdən də heç vaxt İrana qarşı müharibə edə bilməz”*

Göründüyü kimi, Səudiyyə Ərəbistanının neft obyektlərinə edilən hücum ABŞ-la İran arasındakı münasibətləri daha da qızışdırıb. Hətta bir sıra mənbələr iddia edirlər ki, yaranmış vəziyyət ABŞ-ın İrana hərbi müdaxiləsini mümkün edir. Belə zərbələr olacaqsa, İrana həmlə və İranın həmin həmləyə cavabı hansı ssenarilər üzrə inkişaf edə bilər?

Politoloq Zərdüşt Əlizadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hələ zərbələrdən danışmaq tezdir: "ABŞ-ın hədələrinə əsasən bunu təxmin edirlərsə, hələ tələsməsinlər. Çünki ABŞ indiyə qədər İrana zərbə endirəcəyi ilə bağlı o qədər yalan danışıb ki, indiki hədələrini də o qəbildən saya bilərik. Gəlirik ABŞ-ın əlində tutduğu indiki bəhanəyə. Onun əlində konkret dəlil yoxdur ki, həmin hücumu İran edib. Sadəcə, ehtimalla danışıb, İranı bəzi ərəb ölkələri ilə üz-üzə qoymaq istəyir. Niyə onlar hesab edirlər ki, bunu Yəmənin özü edə bilməz? Mən Yəməndə bir neçə il çalışmışam. Oranın spesifikasına yaxşı bələdəm. Çox döyüşkən əhalisi var. Səudiyyə bilmirdi ki, Yəmənə hücum edəndə, onun haqlarını tapdalayanda axırı belə olacaq? Səudiyyənin neft obyektlərinə zərbəni Yəmən endirib. Bunu ABŞ hamıdan gözəl bilir. Yəmən öz qisasını alır. Səudiyyə xalqın dəstəkləmədiyi bir adamı ölkə başçısı edib, zorla 5-6 ölkənin qoşununu ora yeridib guya dövlət başçısını qoruduğunu bəyan edəndə, bu nəticəni də haqq etdiyini bilməli idi. Onlar öyrənmişdilər ki, Yəmən kasıbdır, cavab verə bilməyəcək. Hələ Yəməndə müharibə başlayanda mən demişdim ki, bu, Səudiyyənin sonu ilə nəticələnəcək. Proseslər ona doğru gedir".

Politoloqun sözlərinə görə, sırr deyil ki, İran Yəmən xalqını dəstəkləyir: "Bu heç də o anlama gəlmir ki, onların əli ilə hansısa ölkəyə hücum etməlidir. ABŞ iddialarını sübut edə bilmir. Bundan əvvəl də belə yalanlar danışıb. İraqdakı bakterioloji silahdan tutmuş, Vyetnam gəmilərinin ABŞ gəmilərinə etdikləri hücumla bağlı. Artıq heç kim onlara inanmır. Ağlınız başqa ölkələrə getməsin. ABŞ heç vaxt İrana hücum edə bilməz, çünki buna cəsarəti çatmaz. Bilir ki, belə həmlə edərsə, ilişib o problemin içində qalar. Bir də qarşıdan seçki gəlir. Tramp seçilmək istəyir, bu səbəbdən də heç vaxt İrana qarşı müharibə edə bilməz. Birdə belə fikrə düşsə də, İrandan kəskin cavab alacaq. Bu dəqiqdir. Əslində isə müharibə nə Trampa, nə də İrana lazımdır. Bundan ən çox qorxan isə Səudiyyədir. Çünki hələ bilmir ki, müharibə olsa, Səud övladları hakimiyyətdə qala bilər, yoxsa yox? İstənilən halda, İranla bağlı gərginliyin olması bizə sərf etmir. Çünki qardaş, qonşu ölkəyik, əhalisinin böyük hissəsini bizim soydaşlarımız təşkil edir. Bacardığımız qədər həmin ölkə ilə həmrəylik nümayiş etdirməliyik".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanda cərəyan edən son hadisələr bu ölkədə hakimiyyətlə cəmiyyət arasında artıq ciddi qarşıdurma yarandığını üzə çıxarır. Digər tərəfdən, belə bir vaxtda baş nazir Nikol Paşinyanın komandasında baş verənlər vəziyyətin hökumət üçün daha acınacaqlı xarakter aldığını da üzə çıxarır.**

# Paşinyanın sonunu hazırlayan iki faktor - Azərbaycan Ordusu və Amulsar...



Bu durumda Rusiyanın "regnum.ru" portalı yazır ki, Paşinyanın tezliklə hakimiyyətdən uzaqlaşması qaçılmaz olacaq və bu prosesi iki mühüm məqam sürətləndirir. Bunlardan biri Azərbaycan ordusu, digəri isə "Amulsar" qızıl mədəni ətrafında baş verənlərdir. Portal yazır: "Hələ sentyabrın 15-də "Paşinyanın uzaqlaşdırılması Azərbaycanın yeni savaşa başlamasını önləməyin əsas şərtidir" başlıqlı məqalə "regnum.ru" portalında dərc edilib. Həmin yazını yayan "shame.am" saytında cəmi bur gün boyunca baxış sayı 26 680-i aşıb, bu zaman məqaləni dəyərləndirən oxuculardan 80%-i ona "əla" (74,29%) və "yaxşı" (5,71%) qiymət verib. Oxucuların çoxu, bununla yanaşı, məqalədə "Amulsar" qızıl yatağında uran ehtiyatlarının varlığı haqda ötəri adı xatırlanan informasiyanı daha ayrıntılı açıqlamağı xahiş edib.

Hələ 2007-ci ildə Rusiyanın dağ işi və dağ elmləri sahəsində ən qədim dövri nəşri sayılan "Qorniy Jurnal"da geologiya-mineralogiya elməri doktoru Q.P.Aloyanın "Ermənistanın radioaktiv xammalının resurs potensialı və mənimsənilməsi perspektivləri " başlıqlı məqaləsi dərc olunub. Habelə qeyd edək ki, bu jurnal dağ işi və dağ elmləri sahəsində son dərəcə nüfuzludur, dərgi 2018-ci ildə isə Rusiya Təhsil və Elm Nazirliyinin qərarı ilə "Elmlər doktoru və namizədi elmi adı müsabiqəsi üçün dissertasiyaların əsas elmi nəticələrinin dərc edilməli olduğu, resenziyalaşdırılan aparıcı elmi dərgi və nəşrlərin siyahısı"na daxil edilib. Deməli, budur, Aloyanın sözügedən məqaləsində oxuyuruq: "Ermənistan və Rusiya mütəxəssislərinin məlumatına görə, respublikada müxtəlif geoloji və formasiya şəraitində yerləşən 34 uran (və qismən torium) yatağı üzə çıxarılıb və müxtəlif dərəcədə, ya da hətta az öyrənildiyindən energetika sahəsində sonrakı bir sıra vəzifələri həll etmək üçün güclü mədən potensialı meydana çıxa bilər... Vaytsdzor qrupu Vardemes, Zovaşen, Yelp, Amulsar, Qetap, Vernaşen, Vayk və Şərqi mədən əlamətləri ilə təmsil olunub... Amulsarda uran təzahürü Keçut kəndindən 4 km cənubi-şərqdə və eyniadlı dağdan 4 km şimali-qərbdə yerləşir. Sahə eotsen porfiritlərindən formalaşıb, bunlar ayrı-ayrı hissələrdə 50 m, bəzi yerlərdə 100 metrədək qalınlığında turşuluq zonası yaradan kvarsitlərə və hidrotermal dəyişilən və kvartslaşan suxurlara çevrilib. Eotsen çöküntüləri dəyişilmiş qabbro, qabbro-dioritlərin ... mədən yatağı ilə üzə çıxır. ... Uranın miqdarı geniş hüdudda dəyişir - mində bir hissədən 0,5%-ə qədər... "Amulsar" mədəninin beş sahəsində təzahür, gözəyarı, 76 ton uran hesablanıb, torium sahəsindəki uran nəzərə alınsa, onun ümumi ehtiyatı 100 ton dəyərləndirilə bilər".

Burada bilə-bilə heç nəyi redaktə etmədik ki, mümkün opponentlərim tərəfindən "ümumi kontekstdən çıxarılmış sitat gətimək"də ittiham edilməyək. Əziz oxucu, dərindən düşün: "Amulsar mədəninin beş sahəsində təzahür, gözəyarı, 76 ton uran hesablanıb, torium sahəsindəki uran nəzərə alınsa, onun ümumi ehtiyatı 100 ton dəyərləndirilə bilər". Beləliklə, "Amulsar" qızıl mədəninin istismarı Göyçə gölünün suyunu zəhərləmək planında ekoloji fəlakəti gizlədərək ("Lydian Armenia" ildə 100 tona yaxın sianid işlətməyi planlaşdırır. Yəni "Amulsar" yatağının on il müddətində mənimsənilməsi Ermənistanın hidrosferinə 1000 ton sianid atacaq) Ermənistan əhalisinin daha təhlükəli radioaktiv zəhərlənməsini örtbasdır edir. Yəni iddia etməyə haqqımız var ki, Ermənistan dövlətçiliyinin özünün varlığı təhlükə altındadır. Təəssüf ki, bu, şişirtmə deyil, vur-tut, gerçək təhlükələri və milli təhlükəsizliyə çağırışları qeydə almaqdır. Həqiqətin gözünə baxsaq, bu şəraitdə Nikol Paşinyanı baş nazir vəzifəsindən uzaqlaşdırmaq təkcə Azərbaycanın yeni savaşa başlamasını önləməyin əsas şərti deyil, həm də erməni dövlətinin - Ermənistan Respublikasının varlığına zəmanətdir". Bütün bunlar fonunda hesab edilir ki, yaxın tezlikdə Paşinyanı ciddi problemlər gözləyir. Çünki o, baş nazir kimi bütün ölkəni hərraca qoyub və bu da artıq cəmiyyətin ondan üz döndərməsi ilə müşayiət olunur. Məsələ burasındadır ki, ölkədə ciddi siyasi, iqtisadi böhran yaranıb. Eləcə də, işğalçı siyasət nəticəsində yaranan hərbi şərait əhalinin öz dövlətində yaşaması üçün problem yaradır. Bu səbəbdən Ermənistanda da əhalinin sayının azalması müşahidə edilir. Paşinyanın dönəmində bu proses əhəmiyyətli dərəcədə sürətlənib. Ermənistanın üzləşdiyi çoxsaylı sosial, siyasi və iqtisadi, hərbi problemlər səbəbindən vətəndaşları, xüsusilə kişi cinsinə mənsub sakinləri xaricə daha yaxşı yaşamaq üçün üz tutur.

Bu arada qeyd edək ki, 2020-ci il oktyabrın 18-dən 27-dək Ermənistanda əhalinin siyahıyaalınması keçiriləcək. Ehtimal etmək olar ki, bu sosial tədbirin nəticələri Ermənistan üçün heç də ürəkaçan olmayacaq.

**Həmin kampaniyanın yekunu Nikol Paşinyanın "Strategiya 2050"sinin baş tutmayacağını təsdiqləyəcək. Bunlar onu göstərir ki, işğalçılıq, təcavüzkarlıq, etnik təmizləmə Ermənistana ucuz başa gəlmir. İndi bu problemin işartıları görünməkdədir. Belə vəziyyətdə əhalinin Paşinyana ümidləri tam iükənir və bu da sonuncunun yaxın tezlikdə hakimiyyətdən devrilməsi ilə müşayiət ediləcək.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Qarabağ münaqişəsinin həllində Azərbaycan ssenarisi üstün mövqedə, Paşinyan hökuməti üçün geri sayım başladı

**Ermənistan daxilində baş verən hakimiyyət çaxnaşmalarının Dağlıq Qarabağ münaqişəsinə də mütləq şəkildə təsir göstərəcəyi artıq ekspertlər və araşdırma mərkəzləri tərəfindən də birmənalı şəkildə qəbul olunmaqdadır. Bunu ermənilər özləri də etiraf edərək bildirirlər ki, yaranmış durum İrəvanın Qarabağ məsələsində müqavimət gücünün daha tez sıradan çıxmasına səbəb olacaq.**

Bunu Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri David Şahnazaryan da xüsusi olaraq vurğulayır.

Onun sözlərinə görə, Ermənistanda baş verənlər hakimiyyət daxilində növbəti dəfə xaosun hökm sürdüyünü nümayiş etdirir: "Biz hakimiyyət daxilində idarəolunmaz situasiyaya şahidlik edirik. Bu hökumət üçün artıq geri sayım başlayıb və Vanetsyanın istefası bunun sübutudur. Hakimiyyətin özünə yaratdığı böyük problemləri mövcuddur". Şahnazaryanın sözlərinə görə, öz gələcəyinin üzərindən xətt çəkmək istəməyən istənilən ağıllı insan hazırkı hökumətlə əməkdaşlıq etməyəcək: "Azərbaycanla bağlı bir neçə aqressiv bəyanat verərək, Ermənistanın imicilə bərabər danışıqlar prosesinə də böyük zərər vurdular. Paşinyan Bakının əlinə çoxlu fakt verdi və Qarabağın həlli artıq Azərbaycanın ssenarisi ilə gedir. Azərbaycanın özünün beynəlxalq ictimaiyyət qarşısında hücum fəaliyyətlərini əsaslandırması üçün çoxlu arqumentləri var". Eyni mövqeni erməni politoloq Armen Badalyan da sərgiləyir: "Ermənistan hakimiyyətinin irəliyə baxan gündəliyi yoxdur, bu, geriyə baxan gündəlikdir və bu gündəlik kontekstində ikinci qütb əslində ikinci prezident ətrafında formalaşmağa başlayıb. Hakimiyyət dəyişikliyi prosesi başlayır. Bu durum Ermənistanın xarici siyasətinə, Qarabağ münaqişəsinə əhəmiyyətli dərəcədə təsir edəcək. Paşinyan iqtidarı artıq bunların qarşısını almaq gücündə deyil. Azərbaycanın isə baş verənlərdən faydalanacağına şübhə yoxdur".

Badalyan Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyanın istefası məsələsinə toxunarkən bildirib ki, bu, əvvəlcədən hesablanmış addım idi. Onun sözlərinə görə, Vanetsyan Rusiyanın siyasi hakimiyyət dəstəyinə malikdir: "Paşinyandan fərqli olaraq, Vanetsyanın inzibati resurslarla əlaqələri var. MTX direktoru Rusiyanın siyasi hakimiyyət dəstəyinə malikdir. Paşinyan hazırda təkcə Rusiyanın yox, eləcə də Avropa İttifaqı və ABŞ-ın dəstəyinə malik deyil. Vanetsyan üçün maliyyə tapmaq, siyasi ittifaqlar formalaşdırmaq texnika və zaman məsələsi olub". Bu arada Ermənistan Polisinin rəisi Valeri Osipyanın da vəzifədən azad edilməsi vəziyyəti daha sürətlə Paşinyanın əleyhinə çevirir. Qeyd edək ki, artıq Paşinyan Valeri Osipyanın tutduğu vəzifədən azad edilməsi haqqında sərəncam imzalayıb. Bundan sonra ölkə prezidenti Armen Sarkisyan da Valeri Osipyanın Ermənistan Polisinin rəisi vəzifəsindən azad edilməsinə dair sərəncam imzalayıb. Osipyan istefa ərizəsini Nikol Paşinyanın sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasından sonra yazıb. Erməni mediasının məlumatına əsasən, güc strukturlarının bütün rəhbərləri istefa verəcək.

Artur Vanesyanın istefası isə burada təkan rolunu oynayıb. Eyni zamanda onun istefa ərizəsində yazdıqları Paşinyanın komandasının tam dağılmaqda olduğunu üzə çıxarır. Xatırladaq ki, istefa ərizəsində Artur Vanetsyan çox maraqlı məqamlara toxunaraq yazır: "Dövlət quruculuğunun məntiqi var, qərarların spontanlığı, hərəkətlərin çevikliyi, prioriteti sonra ikinci dərəcəli olan məsələ və keçidlə qalıcı arasında fərq qoymamaq praktikası məqsədə çatmağa aparan yol deyil. Zabit ləyaqəti ilə heç bir ümumi əlaqəsi yoxdur. Zabitin paqonları ilə proseslərin bu cür inkişafı uyğun gəlmir. İstefam "Dur" üçün düşündürücü addım olsun". Bu açıqlamalar Paşinyandan komandasının ciddi şəkildə narazı olduğunu ortaya qoyur. Aydındır ki, baş verənlər Paşinyan hökumətində sonuncu istefalar deyil. İrəvanda məlumatlar dolaşır ki, müdafiə naziri də istefaya hazırlaşır. Düzdür, David Tonoyan özü hələ bunu inkar edir. Ancaq Tonoyanın da Ermənistandakı mövcud duruma görə Paşinyanın yanından qaçması gözlənir. İstefaların sayı artdıqca isə Paşinyanın mövqeləri zəifləyəcək. İstefalar hazırda həm də onunla bağlıdır ki, məmurlar, belə demək olarsa, batmaqda olan gəmidə Paşinyanla çiyin-çiyinə dayanmaq istəmirlər. Digər tərəfdən məlumatlar dolaşır ki, istefa verənlər Rusiyadan gərəkən siqanalları alıb. Rus siyasi təhlilçi Aleksandr Skakov da bunu istisna etmir. O bildirir ki, baş verənlər, Ermənistanın ikinci prezidenti Robert Köçəryana görə, Kremlin qisas vasitələrindən biridir: "Robert Köçəryana qarşı baş verən hadisələr Moskvada olduqca mənfi qəbul edilir". Onun sözlərinə görə, Moskvada Ermənistan hakimiyyətinə qarşı şübhələr var: "Mən bütün bunlarda kökündən mənfi heç nə görmürəm. Məncə, bunlar ikitərəfli əlaqələr kontekstində o qədər də vacib hadisələr deyil. Bu və ya digər şəxsin təhvil verilib-verilməməsi məsələsinə gəlsək, Rusiyanın bu kimi məsələlərdə mövqeyi bu cürdür: Rusiya ümumilikdə heç kimi təhvil verməməyə çalışır, bu yalnız Ermənistana qarşı deyil. Yəni Moskvanın hər hansı şəxsi geri qaytarması üçün ciddi səbəblər lazımdır, üstəlik də Moskvada Ermənistana qarşı şübhələr var. Ermənistanın ikinci prezidenti Robert Köçəryana qarşı baş verən hadisələr Moskvada olduqca mənfi qəbul edilir. Burada bir məntiq var, çünki Moskva, Saakaşvili kimi hadisələr istisna olmaqla, bu və ya digər ölkənin keçmiş rəhbərinin cinayət məsuliyyətinə cəlb olunmaması mövqeyindədir. Yəni yalnız esktremal hallarda". O bildirib ki, Köçəryanın ittiham edilməsi Moskvanın siyasi mətbəx ənənələrinə uyğun gəlmədiyi üçün müəyyən qədər mənfi reaksiyaya səbəb oldu: "Buna görə də, qeyd etdiyiniz şəxslər həmin siyasi axına düşüb və məhz bu səbəblə onlar geri qaytarılmır. Şişkin məsələsinə gəlincə isə, düşünmürəm ki, bu hər hansı mənada Moskva üçün vacibdir, belə Şişkinlər bizdə çoxdur". Rus siyasi təhlilçi qeyd edib ki, Robert Köçəryan amilinə görə Moskva təkcə Ermənistanda hakimiyyəti çalxalamaqla kifayətlənməyəcək. O hesab edir ki, Kreml Qarabağ məsələsi vasitəsilə də Paşinyana böyük zərbə vurulması planını istisna etmir. Belə ki, zəbt edilmiş ərazilərin daha bir hissəsinin Azərbaycan tərəfindən azad edilməsinə şərait yaratmaqla Moskva Paşinyanın mövqelərini əhəmiyyətli dərəcədə laxlada biləcəyini yaxşı bilir. Məhz elə bu səbəbdən yaxın tezlikdə Qarabağ məsələsi ilə bağlı müəyyən mühüm dəyişikliklərin olması tamamilə gözlənilən hal sayılır. Hesab edilir ki, bu istiqamətdə müvafiq addımlar Rusiya prezidenti Vladimir Putinin gələn ayın əvvəlində Ermənistana baş tutacaq səfərindən sonra atılacaq.

Xatırladaq ki, Rusiya prezidenti İrəvanda keçiriləcək Avrasiya İqtisadi Birlyinin sammitində iştirak etmək üçün Ermənistana gəlməlidir. Əsas ssenari budur ki, Putin Ermənistana gəlməyi o qədər də istəmir, lakin sözügedən qurumun iclasında iştirak etməyə bilməz, buna görə də onun münasibətləri hələlik gərginləşdirməməyi və oktyabrın 1-də cəmi 2-3 saat, naharda da iştirak etmədən qısamüddətli səfər etməyi üstün tutacağı qeyd edilir. Rusiyanın Ermənistandakı səfiri Sergey Kopirkin bəyan edib ki, səfərin ləğvi ilə bağlı hələ hər hansı bir açıqlama verilməyib, ona görə də prezident Putin əvvəlki zirvə görüşlərində iştirak etdiyi kimi sammitdə iştirak edəcək. Amma bu. yuxarıda qeyd olunan şəkildə baş tutacaq. Bununla yanaşı, erməni mediasında Putinin daha öncədən elan edilən səfərini ləğv edə biləcəyi ilə bağlı xəbərlər digər ssenari kimi qiymətləndirilir. Məsələ bundadır kk, hələ 2013-cü ilin dekabr ayında Rusiya prezidentinin Ermənistana səfərindən əvvəl təhlükəsizlik işçiləri Ermənistana gələrək avadanlıq gətirir, cangüdənlər hərəkət marşrutunu hazırlayıb yoxlayır, müşahidə oyuqları təşkil edilir, bəzən küçələri asfaltlayırdılar. Həmin vaxt səfərə hazırlıqlar, təxminən bir ay əvvəl, noyabr ayında başlayırdı. Rusiya prezidentinin Ermənistana gözlənilən 1 oktyabr səfərinə cəmi iki həftə qalmasına baxmayaraq, bu dəfə sanki səssizlikdir. Rusiya prezidentinin protokolu və təhlükəsizlik personalının niyə Ermənistana gəlmədiyi ilə bağlı Ermənistan XİN mətbuat katibi Anna Nağdalyana sual ünvanlanıb. Amma o da bu suala cavab verə bilməyib. Bu mənada, Artur Vanetsyanın da Rusiya üçün məqbul bir fiqur sayıldığını nəzərə alsaq, Avrasiya İqtisadi Birlyinin sammitindən əvvəl Ermənistan MTX direktorunun istefası nə dərəcədə məqsədəuyğun idi və bu addım Putinin səfərini ləğv etmək üçün əlavə bir təkan ola bilərmi? Erməni ekspert Gevorq Yenokyan bu xüsusda bildirib: "Düşünürəm ki, bunlar bir-biri ilə əlaqəli olan proseslərdir, zamanın üst-üstə düşməsi o deməkdir ki, bu proseslərin heç olmasa biri sürətlənib".

Erməni politoloq bildirib ki, Ermənistan hökumətinin dağılması sürətlənərsə, Qarabağ məsələsinin həlli prosesini də sürətlənəcək: "Hökumətin dağılması sürətlənərsə, düşünürəm ki, Qarabağ məsələsinin həlli prosesini də sürətləndirəcəklər. Xüsusən də Rusiya bu istiqamətdə fəallaşacaq". "Ermənistan politoloqları" birliyinin sədri Hmayak Ovhannisyan isə hesab edir ki, Putin səfərini ləğv etməyəcək, amma Ermənistandan qayıtdıqdan sonra İrəvana qarşı təzyiqlər artacaq: "Məni ən çox narahat edən məsələ Qarabağ münaqişəsi ilə bağlıdır. Ermənistan bu məsələdə Rusiya iqtidarına qarşı heç bir addım ata bilməyəcək. Çünki Rusiya sərhədlərin nəzarətçisi, təhlükəsizliyin qarantıdır. Sərhədi Rusiya qoruyur, bazaya Rusiya nəzarət edir". Bütün bunlar yaxın tezlikdə Qarabağ məsələsində mühüm dəyişiklikləri istisna etmir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Bu günlərdə Səudiyyə Ərəbistanında neft platformalarına edilən hücum və bunun hansı nəticələrə gətirib çıxaracağı indi dünya miqyasında ekspertlər tərəfindən müxtəlif rakurslarda dəyərləndirilir. Məsələnin maraqlı tərəflərindən biri budur ki, dünya miqyasında müdafiə sənayesinə çox pul xərcləyən ölkələrdən biri olan Səudiyyə Ərəbistanı ölkənin ən böyük neft platforması olan "Saudi Aramco"nun raket və pilotsuz uçuş aparatları ilə hücuma məruz qalmasının qarşısını ala bilməyib.**

# ABŞ-la İran müharibənin bir addımlığında...

Hazırda Səudiyyə Ərəbistanında ABŞ-dan alınan 6 ədəd "Patriot" hava hücumundan müdafiə kompleksi var. 2018-ci ildə müdafiə büdcəsinə 68 milyard dollar ayıran Səudiyyə Ərəbistanının müdafiə batareyaları ölkədəki neftin yarısının emal edildiyi kritik təsislərə istiqamətləndirilmiş hücuma müdaxilə edə bilməməsinin hərbi və texniki səbəbləri araşdırılır. Səudiyyə Ərəbistanının bölgədə ən ciddi rəqabətdə olduğu İran belə ötən il müdafiə sənayesinə 13 milyard dollar ayırıb. Bununla iki ölkə arasındakı rəqabətin ən çox nəzərə çarpdığı Yəməndə Səudiyyə cəbhəsi heç bir hərbi uğur əldə edə bilməyib. Belə vəziyyətdə Səudiyyə Ərəbistanının tədricən ABŞ hərbi texnologiyasından üz döndərməsi istisna olunmur. Bu durum isə ABŞ-ı ciddi şəkildə narahat edir. Səudiyyə Ərəbistanının könlünü almaq üçün ABŞ-ın yaxın tezlikdə İrana müəyyən hərbi zərbələr endirməsi isə istisna olunmur.

Xatırladaq ki, amerikalılar raket və dronların İran torpaqlarından havaya qalxdığını iddia edir. İran prezidenti Həsən Ruhani də belə bir vaxtda açıqlama verərək bildirib ki, Səudiyyə Ərəbistanının "Saudi Aramco" zavodlarına PUA-larla olunan hücum xəbərdarlıqdır: "Yəmən xalqı Səudiyyə Ərəbistanındakı neft obyektlərinə edilən hücumla bu ölkədə müharibəyə qarışanlara bir xəbərdarlıq etdi. Yəmənlilər xəstəxananı və ya məktəbi vurmadılar, xəbərdarlıq etmək üçün məhz sənaye obyektini vurdular". Qeyd edildiyi kimi, ABŞ hücumun arxasında İranın olduğunu iddia edir. Birləşmiş Ştatlar Prezidenti Donald Tramp isə, məlumatlara görə, bu durumda "Saudi Aramco" şirkətinin neft emalı zavoduna hücuma cavab olaraq bir neçə variantı nəzərdən keçirir.




Məlumata əsasən, Tramp administrasiyası İrana qarşı kiberhücum, neft obyektləri və İslam İnqilabı Keşikçiləri Korpusunun obyektlərinə qarşı zərbələri nəzərdən keçirir. Məhz elə bu da İranla savaşın başlanmasını istisna etmir. ABŞ-ın "National Iinterest" dərgisi də artıq belə bir savaşın qaçılmaz olduğunu yazır: "Dövlət katibi Mayk Pompeo kimi "qırğılar" üçün Amerikanın gücü, bir bolşevik məsələndə deyildiyi kimi, sarsıla bilməz. Bir çoxlarının nəzərində Amerikanın qüdrəti düşmənin təslim olması üçün lazım olan və Amerikanın yumşaldığı təqdirdə itirəcəyi yeganə şeydir. Amma bu da var ki, Donald Tramp oğul Corc Buşun prezidentlik dövrünün İraq müharibəsində necə yandığını izləyib və seçki ili ərəfəsində onun müharibə xaosunu qəbul etməsi elə də asan deyil. Prezident Trampın Fars körfəzi bölgəsindəki ən son təhlükəsizlik epizodundan dərs alması, xüsusən də administrasiyasının Tehrana qarşı apardığı kampaniyaya diqqət yetirməsi məntiqli olardı.

Səudiyyə Ərəbistanındakı Abqaiq neft emalı müəssisəsinə həmlədən sonra dövlət katibi Pompeo hücumun husi dronları ilə deyil, İranın İraq ərazisindən istifadə ilə həyata keçirildiyini bildirib. Halbuki, husilər məsuliyyəti boyunlarına götürüb və İran Pompeonun iddiasını qətiyyətlə rədd edib. Husilər bu hücumu müvəffəqiyyətlə yerinə yetiriblərsə, bu onların xarici təcavüzkarlara qarşı strateji imkanlarının əhəmiyyətli dərəcədə artması deməkdir. Belə bir hücumun husilərin texnoloji imkanları xaricində olması iddiası əsassızdır. Əslində, son hücumla Birləşmiş Ştatların raket əleyhinə imkanlarının etibarlılığı şübhə altına alınıb. Səudiyyə Ərəbistanı və ABŞ hökumətinin "qırğıları" üçün husilər kimi qəbilə qüvvəsinin yad ərazilərə soxula bilməsi hərbi və praktiki olaraq siyasi baxımdan utancvericidir.

Digər tərəfdən, İranın Fars körfəzindən kruiz raketləri atması ehimalı, əslində, ABŞ üçün daha dəhşətli xəbər ola bilər. Vaşinqtondakı mütəxəssislər uzun müddətdir bu fikirdədir ki, İran raketlərinin dəqiqliyi azdır və nüvə başlığı olmadan İranın ballistik raketləri düşməni qorxutmaq və ya şantaj etmək üçün siyasi vasitə kimi təsirli ola bilməz. İranın kruiz raketləri hərbiləşdirilmiş Fars körfəzi boyunca uçubsa, Səudiyyə və Amerika sensorlarından yayınaraq neft qurğusunu vura bilibsə, bölgədəki ABŞ qüvvələrinə necə etibar edilə bilər? İranın asimmetrik və çəkindirmə qabiliyyəti ilə bağlı narahatlıq əlamətləri əvvəllər də var idi. Təqaüdçü vitse-admiral, indi siyasətçi və prezidentliyə namizəd Co Sestak bir ay əvvəl ABŞ-ın İrana birbaşa hücumunun əməliyyat nəticələrindən narahatlığını dilə gətirib. O, İranın bölgədəki qisas potensialı ilə əlaqədar xəbərdarlıq edib. Buna Pompeonun indi İran raketlərinə aid açıqlamasını və raketlərin dəqiqliyini əlavə edin, ABŞ-ın Fars körfəzi bölgəsindəki hərbi mövcudluğunun qorxuducu bir vasitə olmaqdan strateji zəifliyə keçməsi nəticəsi alınır. Hər iki halda ABŞ, Səudiyyə və İsrailin regional təhlükəsizlik arxitekturası uğursuz görünür. Birləşmiş Ştatlar müharibəyə gedə və ya barışıq davası aça bilər, ancaq ABŞ-ın məsafədən təzyiq göstərmə üsulu işləmir. Pompeo aylardır media kampaniyasında iştirak edir və İrana qarşı "maksimum təzyiq" siyasətini uğur kimi qiymətləndirir. Lakin Pompeonun sanksiyaların İranın bölgədəki şəbəkəsinə ciddi ziyan vurmasına dair dəlili əsassızdır. İlk prioritet İran rəhbərliyinin mənbələrini aşkar etmək idi. Məsələn, Pompeo "ABC News"a deyib ki, "hesablama, həqiqətən, çox düzdür. İndi "Hizballah" resurslar uğrunda mübarizə aparır. İraqdakı şiə milisləri də eyni durumdadır".

Səudiyyə Ərəbistanı neft emalı zavodlarına hücum Pompeonun təsəvvürlərini pozub. Konqresin Tədqiqat Xidmətindən Kennet Katsman sanksiya təzyiqinin İranın müttəfiqlərinə dəstəyini dayandırmasına səbəb olacağı fikrini rədd edib: "Nə İranın, nə də "Hizbullah"ın imkanlarının və ya Əsədin kömək etmək niyyətinin dəyişməsinə dair heç bir əlamət yoxdur. Hər ikisi də Suriyada əhəmiyyətli dərəcədə məşğuldur, İraq, Yəmən və başqa yerlərdə vəziyyət, demək olar ki, dəyişməz qalır". Sadə dillə desək, Vaşinqton İran iqtisadiyyatına təzyiqlə onun müttəfiqlərini dəstəkləməsini dayandıracağına ümid edir. İranın ittifaq şəbəkəsini dəstəkləməkdən vaz keçəcəyinə dair Vaşinqtonda mövcud olan rəy səhvdir. İran üçün qeyri-dövlət müttəfiqləri əsas milli təhlükəsizlik məsələsidir və buna görə də gərginlik çoxaldıqda onlar büdcə mülahizələrində prioritet olacaq. Bu vəziyyətdə ABŞ-ın savaşa başlama ehtimalı artır və belə vəziyyət regionda uzunmüddətli dəhşətli vəziyyətin yaranmasına rəvac verəcək".

***Tahir TAĞIYEV***

# 7-ci siniflər üçün "Qarabağ tarixi" alimlər arasında kəskin mübahisə doğurdu

*"O, "Qarabağ tarixi" dərsliyini özbaşına tənqid etmir, onu kimsə öyrədib, özü də bilirəm kim öyrədib"*

**Qarabağ tarixinin ətraflı öyrədilməsi orta məktəbdən başlamalıdır ki, övladlarımız tariximizin Qarabağ səhifəsini yaddaşlarına həkk etsinlər. Bu gün orta məktəblərdə "Qarabağ tarixi" ayrıca dərslik kimi keçilir. Dərsliyin müəllifi isə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyevdir.**

Q.Hacıyevin müəllifi olduğu dərslik Təhsil Nazirliyi tərəfindən yenidən nəşr edilərək orta təhsil müəssisələrinə təqdim edilib. "Qarabağ tarixi" orta ümumtəhsil məktəblərinin Azərbaycan və rus bölmələrinin 7-si siniflərində tədris olunur.

"Qarabağ tarixi" dərsliyinin yenilənərək, təkmilləşdirilərək yenidən çap edilməsi və orta məktəblərin ixtiyarına verilməsi sosial şəbəkələrdə qızğın müzakirələrin yaranmasına səbəb olub. Daha doğrusu, bəzi elm adamları, alimlər, o cümlədən də "Abidələri Müdafiə Təşkilatı"nın sədri, AMEA-nın İnsan Hüquqları İnstitutunun aparıcı elmi işçisi Faiq İsmayılov öz "Facebook" hesabında professor Q.Hacıyevin müəllifi olduğu dərsliyi kəskin şəkildə tənqid edib, bu da onlar arasında qalmaqala səbəb olub. F.İsmayılov kitabla bağlı paylaşımın rəy yerinə, ümumiyyətlə, "Qarabağ tarixi"nin ayrıca fənn kimi tədris edilməsinin dövləti bölməyə, regionlaşdırmaya xidmət etdiyini qeyd etməklə yanaşı, kitabda kifayət qədər qüsurun olduğunu da yazıb. "Professor Qasım Hacıyevin 2014-cü ildə çap etdirdiyi 8-ci sinif "Qarabağ tarixi" kitabının 20-ci səhifəsində belə bir başlıq var: "3. Qarabağ regionu yazıb mənbələrdə". Bu nə deməkdir? Uşaqlar bunu necə başa düşsün? ...Bu barədə mənim mətbuatda geniş təhlili yazım olacaq. Biz öz əlimizlə övladlarımızı kor edirik. O kitabda olan mətnlərin heç biri 8-ci sinif şagirdlərinə uyğun deyil" - deyə qeyd edib.








F.İsmayılovun qeydləri Q.Hacıyevin ciddi narazılığına səbəb olub və o hesab edir ki, bir qrup öyrədilmiş adam bu fikirləri səsləndirməklə "Qarabağ tarixi" dərsliyinin tədris olunmasına mane olur. "Bilirsiniz, "Qarabağ tarixi" dərsliyi ilk dəfə 2014-cü ildə orta məktəblərin tədris proqramına daxil edildi. Həmin dövrdə bəzi özünü alim adlandıranlar, eləcə də bir-iki deputat bu dərsliyin əleyhinə çıxdı ki, Qarabağ ayrıca respublika deyil və bu dövlətin tərkib hissəsidir, onun tarixi nə üçün ayrıca tədris edilməlidir? O zaman İsa Həbibbəyli Milli Məclisdə çox məzmunlu çıxış edərək "Qarabağ tarixi"nin ayrıca dərslik kimi tədris olunmasının əhəmiyyətli olduğunu dedi.

Hesab edirəm ki, Faiq müəllim öyrədilmiş adamdır. Bilirsiniz, mən həmişə ona dəstək olmuşam, bərabər proqramlara aparmışam. Onun belə danışması çox yersizdir.

Dərsliyin yeni nəşrində hər hansı bir nöqsanın olduğunu demək düzgün deyil. 2014-cü il nəşrində müəyyən nöqsanlar vardı və Təhsil Nazirliyi dərsliyi yenidən çapa hazırlayanda on ekspert həmin dərsliyi oxuyub, qeydlərini aparıb, sonra məni də dəvət ediblər gedib nəzərdə tutulan dəyişikliklərin, eləcə də nöqsanların hamısını bir-bir düzəltmişik, ortaya çox yüksək səviyyəli "Qarabağ tarixi" dərsliyi çıxarmışıq. Dərsliyin 20 min nüsxəsi Azərbaycan, 18 min nüsxəsi isə rus bölümlərində tədris olunur. 7-ci sinifdə tədris edildiyi üçün dərslikdə məzmunlu şəkillər, xəritələr verilib. Mövzular da yığcam və məzmunludur. Mən bu dərsliyi öz təcrübəmə əsasən yazmışam.

## Qasım Hacıyev: "...ortaya çox yüksək səviyyəli "Qarabağ tarixi" dərsliyi çıxarmışıq"

Orta məktəbdə direktor, dərs hissə müdiri işləmişəm, yəni orta məktəb sahəsində təcrübəm var. Faiq müəllim isə orta məktəbdə dərs deməyib, tədrisi bilmir. Onun mənim haqqımda dedikləri təhqir kimi çıxır. Onun bu fikirlərinə məəttəl qalmışam, bunu heç ondan gözləməzdim. Mən Faiq İsmayılovun kitablarının rəyçisiyəm. Hesab edirəm ki, o, "Qarabağ tarixi" dərsliyini özbaşına tənqid etmir, onu kimsə öyrədib, özü də bilirəm kim öyrədib.

Özünü professor, akademik adlandıran bir adam var, o, "Qarabağ tarixi"nin tədris edilməsini istəmirdi. Bunun da səbəbləri var. Bəzi qeyri-hökumət təşkilatlarının təmsilçiləri, eləcə də radikal müxalifət istəmir ki, Qarabağ tarixi öyrənilsin. Çünki bu adamlar erməni dəyirmanına su tökənlərdir. "Qarabağ tarixi"nin orta məktəblərdə tədris edilməsi çox vacibdir. Bir sıra məktəblərdə "Qarabağ tarixi"ni ayrıca öyrənmək lazımdırmı" məzmunlu sorğular keçiriblər, bütün müəllim və şagirdlər "bəli, tədris edilməlidir, bu çox vacibdir" cavab verib. Kitablarım Qarabağ həqiqətlərini açıq şəkildə göstərir. Bu kitab əksər məmur, müəllim, alimin stolüstü kitabıdır. Faiq müəllim deyir ki, guya dərsliyin 20-ci səhifəsində "Qarabağ regionu yazıb mənbələrdə" yazılıb. O kitabın elektron variantını götürüb və orada da hərf səhvi olub. Kitabdan isə xəbəri yoxdur. Həm də onun qeyd etdiyi məsələ 20-ci səhifədə deyil, 14-cü səhifədədir. Mən bu kimi fikirlərə əhəmiyyət vermirəm. Hesab edirəm ki, Qarabağın tarixi dərindən öyrənilməli, təbliğ edilməlidir. Bilirsiniz, ermənilər işğal altında saxladıqları Qarabağın hər daşından, hər dağından, hər yerindən bir kitab, bir məqalə yazıblar. Biz onlardan yüz dəfə az yazmışıq. Biz indi-indi yazırıq. Öz sifətini gizlədən ermənilər və ermənipərəstlər bu dərsliyə qulp qoyurlar. Ermənilərin 50-60 il əvvəl yazmağa başladığını biz indi yazırıq".

## Faiq İsmayılov "O kitabda olan mətnlərin heç biri 8-ci sinif şagirdlərinə uyğun deyil" deyir

**Q.Hacıyev qeyd etdi ki, "Qarabağ tarixi" dərsliyi yazıldıqdan sonra onun nəşrinə mane olan qüvvələr tərəfindən 6 il seyfdə saxlanıb. Bununla belə, dərslik Təhsil Nazirliyi tərəfindən nəşr edilərək ayrıca fənn kimi tədris edilməyə başladı. Q.Hacıyevin fikrinə görə, kimin kitab haqqında nə danışmasından asılı olmayaraq, əsas odur ki, bu dərslik Təhsil Nazirliyi, məktəblər, müəllim və şagirdlər tərəfindən müsbət qarşılanır.**

***İradə SARIYEVA***

# Azərbaycandan gedən turistlər ölkəmizə gələn turistlərdən düz iki dəfə çox pul xərcləyirlər...

**Mərkəzi Bank 2019-cu ilin 6 ayı üzrə ödəmə balansının göstəricilərini açıqlayıb. Sözügedən göstəricilərdən məlum olub ki, 2018-ci ilin eyni dövrünə nisbətən Azərbaycanın əcnəbi turistlərdən qazancları təxminən 2 dəfə azalıb. Yəni əldə edilən gəlir 1.474 milyard dollardan 777 milyon dollara enib.**



***Elçin Rüstəmli:** "Hindistan, Pakistan və Çindən gələn turistlərin alıcılıq qabiliyyəti aşağıdır"*

***Ruslan Quliyev:** "Bunun əsas səbəbi onunla bağlıdır ki, ölkəmizə turistlər minimal paketlə gəlirlər"*

Əvəzində azərbaycanlı turistlərin xarici ölkələrdə xərclədiyi vəsaitin həcmi isə 70 faizə yaxın artıb. Belə ki, 2018-ci ilin 6 ayında bu, 747 milyon təşkil edirdisə, bu ilin 6 ayında həmin göstərici 1.250 milyard dollara çatıb.

Turizm gəlirlərinin 1 ildə bu qədər azalmasının səbəbləri maraq doğurur. Vətəndaşlarımızın turist kimi xaricdə xərcləmələrinin kəskin artımı diqqəti cəlb edir. Bunun kökündə dayanan səbəblərin ortaya çıxarılması aktual olaraq qalır. Nəzərə almaq lazımdır ki, 2019-cü ilin yanvar-avqust aylarında Azərbaycana səfər edən xarici vətəndaşların sayı illik müqayisədə 8,3 faiz artaraq 2,1 milyona çatıb. Azərbaycana gələn əcnəbilərin sayında 2016-cı ildən davamlı artım müşahidə olunur. Həmin ildə ölkəmizə 2,25 milyon əcnəbi səfər edib. 2017-ci ildə bu göstərici 2,7 milyon nəfərə, 2018-ci ildə 2,85 milyon nəfərə yüksəlib. Proqnoza əsasən, ölkəmizə gələn turistlərin sayı 2019-cu ildə 3 milyon nəfəri ötəcək.

Turizm əhalinin məşğulluğunun artmasına da töhfə verir. 2014-cü ildə turizm sektorunda 42 min insan çalışırdısa, 2018-ci ildə sektorda çalışanların sayı 53,2 mini ötüb.

Maraqlıdır, gələnlərin sayı artdığı halda, Azərbaycanın əcnəbi turistlərdən əldə etdiyi qazanc niyə azalıb?

Sözügedən məsələyə aydınlıq gətirən turizm sahəsi üzrə ekspert Elçin Rüstəmlinin fikrincə, Azərbaycana bu il daha çox Hindistan, Pakistan və Çindən turist gəlib: "Say nisbətinə görə bu ölkələrin vətəndaşları çoxdur. Ancaq problem ondadır ki, onların alıcılıq qabiliyyəti çox aşağıdır. Yəni qruplarla və ucuz olsun deyə avtobuslarla ölkəmizə gəlirlər. Bu da nəticədə həmin ölkədən gələn turistlərin sayının çoxalmasına gətirib çıxarır. Məsələn, bir qrupda 100 nəfər gəlir. Onların alıcılıq qabiliyyəti aşağı olmaqla yanaşı, həmin turistlər ən ucuz otellərdə qalırlar. Avropa və ərəb ölkələrindən gələn 10 turistin dövriyyəsi onların 50 nəfərinin dövriyyəsindən belə çoxdur. O nöqteyi-nəzərdən adam sayı artsa da, xərcləmələrin həcmi aşağıdır. Fikrimcə, Avropa və ərəb ölkələrindən turist çox gəlsə, o zaman xərcləmələr daha çox olacaq. Son dövrlər ərəblər əsasən Türkiyəyə üz tuturlar. O səbəbdən bizim ölkəyə gələn ərəb turistlərin sayında azalma var".

Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının prezidenti, "Milenium Konqres" turizm şirkətinin rəhbəri, turizm mütəxəssisi Ruslan Quliyev isə bunun səbəbini digər amillərlə əlaqələndirdi: "Belə hallar bəzən digər ölkələrdə də müşahidə edilir. Görürsən ki, gələn turistlər çoxdur, amma onların xərcləmələri az. Məsələn, İsveçə gələn turistlərin sayı Türkiyə ilə müqayisədə azdır.

Ancaq İsveçdə turistlərin xərcləmələri Türkiyəyə baxanda daha çoxdur. Azərbaycana gəldikdə isə bunun bir sıra səbəbləri ola bilər. Bunun əsas səbəbi onunla bağlıdır ki, ölkəmizə turistlər minimal paketlə gəlirlər. Bu zaman yan sahələrdən, yəni əlavə xidmət sahələrindən az istifadə edirlər. Bəzi ölkələrdən gələn turistlər nağd hesablaşmalara üstünlük verirlər. Bu da statistikaya düşmür. Ən nəhayət, bəzi xidmət və əyləncə mərkəzlərində pos-terminallar yoxdur. Həmin yerlərdə nağd ödəməyə üstünlük verilir. Bu da xərcləmələrin nə qədər olmasını müəyyənləşdirməyə mane olur".

***Vidadi ORDAHALLI***

# Aşura günü toplanan 40 nəfərin qanında sifilis tapılıb

**Bir neçə ildir ölkədə qanvermə aksiyalarının keçirilməsi ənənə halını alıb. Bu nəcib təşəbbüs nəticəsində yığılan qanlar qan xəstəliyindən əziyyət çəkən xəstələrə vurulur. Bu günlərdə ölkədə daha bir qanvermə aksiyası təşkil olundu. Aşura günündə məscidlərdə keçirilən qanvermə aksiyası zamanı 2 min 614.1 litr qan toplandı.**



***Adil Qeybulla:** "Sifilis xəstəliyinin artmasının səbəbi təsadüfi cinsi əlaqələrdir"*

Könüllü olaraq bu prosesdə iştirak edən şəxslər qan xəstəliyindən əziyyət çəkən insanlara yardımçı olmağa çalışsalar da, bəzən onların bu nəcib təşəbbüsə qoşularaq verdikləri qan işə yaramır.

Belə ki, Səhiyyə Nazirliyi və Qafqaz Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə qana ehtiyacı olan xəstələrə yardım məqsədilə könüllü qan verən 169 nəfərdə virus aşkarlanıb. Nazirliyin yaydığı məlumatda qeyd olunur ki, Aşura günü ilə əlaqədar keçirilən aksiyalarda 5 min 809 nəfər könüllü olaraq qan verib. Bu şəxslərdən 2 min 614.1 litr qan tədarük olunub.

Tədarük olunan qan 4 infeksiyaya görə Mərkəzi Qan Bankında müayinə edilərkən 169 nəfərdə virus aşkar olunub. Qeyd edək ki, HİV1/2 (QİÇS) virusu aşkarlanmayıb, 44 nəfərdə HbsAg (Hepatit B), 76 nəfərdə HCV (Hepatit C), 49 nəfərdə isə sifilis aşkar olunub. Virus aşkar olunan nümunələr istifadədən kənarlaşdırılıb və müvafiq qaydalara uyğun olaraq zərərsizləşdirilib.

Qan verib yaşatmaq nəcib təşəbbüs olsa da, qanvermə aksiyalarında toplanan qanın təhlükəsizlik məsələsi həmişə gündəmdə olub. Nəzərə almaq lazımdır ki, Aşura günündə əhalinin az bir hissəsi qanvermə aksiyasında iştirak edir. İştirak edənlər arasında sifilis xəstəliyinin aşkar olunması ötən illə müqayisədə artıb.

Professor, tibbi ekspert Adil Qeybulla qeyd etdi ki, əhali arasında qanvermə aksiyaları zamanı toplanan qanda təhlükə, hər hansı infeksion xəstəliyin olması barədə narahatlığın yaranmasına heç bir əsas yoxdur.

Həmsöhbətimizin sözlərinə görə, qanvermə aksiyalarında laborator müayinə zamanı müxtəlif xəstəliklər aşkarlanan qanların olduğu üzə çıxır. Bu zaman isə həmin qanlar yararsızlaşdırılır.

A.Qeybulla onu da vurğuladı ki, cinsi yolla keçən infeksion xəstəliklərin sayı dünya üzrə artmaqdadır: "Düzdür, narkomanlar arasında da QİÇS və digər infeksiyaların yayılma şansı çoxdur. Müayinələr bu xəstəliklərin aşkar olunmasına şərait yaradır. Bu baxımdan da nə qədər ki, bu proses gedəcək, aşkar olunmalar da artacaq. Aparılan müayinələr zamanı məlum olub ki, son zamanlar cavanlar arasında QİÇS xəstəliyindən əziyyət çəkənlər artıb. Bunun səbəbi narkomaniyaya meylin artması ilə bağlıdır. Sifilis xəstəliyinin artmasının səbəbi təsadüfi cinsi əlaqələrdir.

Ümumiyyətlə, cinsi yolla yayılan infeksiyalardan necə qorunmaq lazım olduğu, təsadüfi əlaqələrdən çəkinmək, narkomanlar üzərində nəzarət, onların maarifləndirilməsi ilə bağlı işlər aparılmalıdır. Məlumat üçün bildirim ki, xarici ölkələrdə narkomanlarla bağlı xüsusi proqram var. Bu proqrama əsasən, narkotiki əvəz edən xüsusi bir dərman var və bu dərmanın satışı apteklərdə həyata keçirilir. Bu dərmandan da istifadə edilir. Proqram bu cür məsələlərdə xeyli yüngüllük yaradır. Amma, istənilən halda, cinsi yolla keçən infeksion xəstəliklərin sayı dünya üzrə artmaqdadır. Üçüncü ölkələrdə, hansı ki, orada maarifləndirmə azdır, dinamika daha çoxdur. Təsadüfi deyil ki, bu xəstəliklərin əksəriyyəti Afrikadan başlayır. Bunun özü də həmin ölkələrdə sanitariya mədəniyyətinin aşağı olması ilə izah olunur".

*"Əhali arasında qanvermə aksiyaları zamanı toplanan qanda təhlükə, hər hansı infeksion xəstəliyin olması barədə narahatlığın yaranmasına heç bir əsas yoxdur"*

Həmsöhbətimiz onu da vurğuladı ki, cinsi əlaqə zamanı bir insandan digərinə 30-dan artıq bakteriya, virus və parazit keçir. Bu patogenlərin arasında olan 8 infeksiya ən təhlükəlidir və bir çox xəstəliyin və pozulmaların səbəbi olur. Hazırda bu infeksiyalardan 4-ü (süzənək, sifilis, xlamidioz və trixomoniaz) tam müalicə olunur. Digər 4 infeksiya isə (hepatit B, herpes, QİÇS) müalicə olunmur. Lakin müəyyən müalicənin köməyilə onların simptomlarını və orqanizmə təsirlərini azaltmaq mümkündür. Həmçinin, bu infeksiyalar hamiləlik və doğuş zamanı anadan körpəyə keçə bilər.

***Günel CƏLİLOVA***

# Akademiya rəhbərliyindən ali məktəb dərsliklərinin səviyyəsi barədə kəskin irad...

**İlqar Orucov:** *"Bütövlükdə, ali məktəblərdə tədris edilən dərsliklər kifayət qədər köhnəlib, eyni zamanda, proqramlarda çoxlu nöqsan var"*

**Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra orta və ali məktəb dərsliklərinin yenidən hazırlanması zərurəti meydana çıxdı. Bildiyimiz kimi, ali məktəblərdə tədris edilən dərsliklərin bir çoxu yenidən yazılmağa başladı. Xüsusən də humanitar və ictimai elmlər sahəsində müasir tələblərə uyğun ali məktəb dərslikləri meydana çıxmağa başladı.**



*"...Rusiya dərsliklərindən tərcümə olunur və hansısa müəlliflər plagiatlıq edərək..."*

Lakin aparılan araşdırmalar, ayrı-ayrı alimlərin qənaətləri onu deməyə imkan verir ki, ali məktəb dərsliklərinin məzmun və keyfiyyəti heç də ürəkaçan deyil.

Son dövrlər "filankəs gözəl alimdir, onun yazdığı dərslik tədris edilməlidir" fikri ilə tez-tez rastlaşırıq, ancaq araşdıranda görürük ki, o alimin yazdığı dərsliyin heç bir effekti, əhəmiyyəti yoxur.

Ali məktəblərdə dərsliklərin səviyyəsinin qənaətbəxş olmadığını Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli də dilə gətirib. İ.Həbibbəyli qeyd edib ki, Azərbaycanda ali məktəb dərsliklərində problemlər var. Xüsusən təbiət elmləri, riyaziyyat sahəsində tərcümə edilmiş, köhnəlmiş ədəbiyyatlardan istifadə olunur. Onun sözlərinə görə, orta məktəb dərsliklərinin hazırlanması ilə bağlı mühüm nailiyyətlər əldə edilib: "Bu il ilk dəfə olaraq, 1-ci sinif şagirdləri üçün "Riyaziyyat" dərsliyi iki hissədən ibarət kitab formasında çap edilib. Bu, bizim dərsliklərin çəkisinin yüngülləşdirilməsi üçün apardığımız müzakirələrin konkret nəticəsidir. Amma ali məktəb dərsliklərində problemlər var".

Ali məktəblərin bakalavriat səviyyəsi üçün müəyyən dərsliklər olsa da, magistratura səviyyəsi üzrə dərsliklərin hazırlanması prosesi çox ləng gedir" - deyə bildirən İ.Həbibbəyli, həmçinin, deyib ki, bəzən magistraturada bakalavriat səviyyəsi üçün olan dərsliklərdən istifadə edilir: "Magistratura üçün proqramlar bakalavriat səviyyəsi üzrə olan proqramlardan fərqlənmir, bu proqramlar bir-birindən xeyli fərqləndirilməlidir. Magistratura üçün dərsliklərin hazırlanması prioritet olmalıdır".

Məsələyə münasibət bildirən Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, illərdir Azərbaycanda ali məktəblərdə tədris edilən dərsliklərdə mövcud olan nöqsanlar gündəmə gətirilir və o özü də dəfələrlə bu barədə fikir bildirib.

"Bəli, bu gün ali məktəb dərslikləri ilə bağlı çox ciddi problemlər var. Bütövlükdə, ali məktəblərdə tədris edilən dərsliklər kifayət qədər köhnəlib, eyni zamanda, proqramlarda çoxlu nöqsan var. Elə dərsliklər var ki, onlar, ümumiyyətlə, tədrisə yararlı deyil. Xüsusən də elmdə, təhsildə tərəqqinin geniş vüsət aldığı bir dövrdə, əlbəttə ki, köhnə dərsliklərdən istifadə etmək düzgün deyil. Hər dövrün öz çağırışı var. Söhbət ondan getmir ki, Sovet dövründə yazılmış dərsliklər keyfiyyətsiz idi. Əksinə, onlar o dövr üçün çox mükəmməl dərsliklər idi, lakin onlar indiki dövrün çağırışlarına cavab vermir. Əvvəla ona görə görə ki, zaman və zamanın çağırışları dəyişir. Bizim bugünkü əmək bazarı üçün hazırladığımız kadrlara, ali məktəblərin məzunlarına qoyulan tələb 5-10, 20 il bundan əvvəlki tələblərlə eyni deyil. Fikirləşirəm ki, bu istiqamətdə çox ciddi işlər görülməlidir. Dərsliklərin bir çoxu plagiatdır. Bunlar daha çox Rusiya dərsliklərindən tərcümə olunur və hansısa müəlliflər plagiatlıq edərək o dərslikləri öz adlarına nəşr etdirirlər. Bu çox ciddi faktlardır. Orta məktəb dərslikləri ilə bağlı məsələ hər zaman gündəmə gəlir. Çünki hər ailədə heç olmasa bir ali təhsilli adam olduğu üçün, bu dərsliklərdə olan nöqsanlar dilə gətirilir. Ancaq ali təhsil müəssisələrində istifadə olunan dərsliklərlə əlaqədar isə yalnız mütəxəssislər rəy bildirə bilirlər. Tutaq ki, hər hansı bir valideyn Texniki Universitetdə oxuyan övladının dərsliyinə baxarkən onsuz da orada olanları başa düşməyəcək, bu dərsliyin tələblərə cavab verib-vermədiyini bilməyəcək. Bu sahə çox vaxt diqqətdən kənarda qalır və elə də çox tənqid olunmur. Ancaq hesab edirəm ki, hər bir ali təhsil müəssisəsi tələbələrin çox mükəmməl dərsliklərlə təmin olunmasında maraqlı olmaldır. Bu baxımdan, fikrimcə, dərsliklərdəki nöqsanların məsuliyyəti ali təhsil müəssisələrinin üzərinə düşür. Bu işə bilavasitə cavabdeh olan ali məktəb rəhbərləridirlər. Ona görə ki, universitetlər hüquqi publik şəxs statusunda fəaliyyət göstərirlər, muxtariyyəti var, dərsliklərdə, eləcə də digər məsələlərdə müstəqildirlər. Eyni zamanda, tutaq ki, Təhsil Nazirliyi onların sərbəstliyinə mane ola bilmir, bir çox halda tövsiyə xarakterli fikirlər bildirir. Düşünürəm ki, ali məktəblərimizdə tədris edilən dərsliklərin keyfiyyətsiz olması bilavasitə ali məktəblərin özünün verdiyi təhsilin keyfiyyətinin aşağı olduğunu göstərir. Universitetlər arasında rəqabət çox olsa, onlar başa düşsələr ki, yetişdirdikləri mütəxəssislər sabah əmək bazarında yer tuta bilmir və ona müraciət az olacaq, əlbəttə, öz məsuliyyətlərini dərk edəcəklər. Bu halda universitetlər həm reytinqlərini qaldırmağa, həm peşəkar kadr hazırlığına diqqət yetirəcəklər. Kadr hazırlığı məsələsi birbaşa dərsliklərdən keçir".

İ.Orucov hesab edir ki, Azərbaycan ali təhsil müəssisələrində çox ciddi qüsur və çatışmazlıqlar var. Onun sözlərinə görə, biz dünyanın ali təhsilinə inteqrasiyadan danışırıq, amma öz ali təhsilimiz nə qədər geridə qalır. O bildirdi ki, dünyanın nüfuzlu ali məktəbləri qədim tarixlərinə görə reytinq qazanmayıblar, onların tarixi qədim olduğu qədər buradakı alimlər də peşəkardır, dünyada qəbul edilən alimlərdir. "Bu ali məktəblərin dərsliklərində bizdəki kimi nöqsanlar olmur. Hesab edirəm ki, Azərbaycan universitetlərində tədris olunan dərsliklərin keyfiyyətsizliyinin, səviyyəsinin aşağı olmasının məsuliyyəti ali məktəb rəhbərlərinin, aidiyyatı kafedraların üzərinə düşür. Ola bisin, rektor bütün kafedraların işinə nəzarəti həyata keçirə bilməz, amma kafedra müdirləri dərsliklərə birbaşa cavabdeh olmalıdırlar. Nösqanlı, keyfiyyətsiz dərsliyin tədris edilməsi tələbənin vaxtının boş yerə alınmasıdır. Bu səbəbdən, tələbənin mənimsədikləri sabah əmək bazarı üçün gərək olmur. Cəmiyyətdə haqlı bir fikir var ki, bizim ali təhsil müəssisələrinin verdiyi diplomlar insanların ali təhsil almaqları haqqında bir qəbzə çevrilib. Görün, cəmiyyətin bu ittihamı nə qədər sərtdir və əsassız da deyil. Dərsliklərlə bağlı çox ciddi işlər görülməlidir".

İ.Orucov qeyd edir ki, ali məktəblərin çoxu ödənişli təhsil göstərir və tələbələrin ödənişindən çox ciddi vəsait əldə edirlər. Onun sözlərinə görə, bu vəsaitlərin səmərəli idarə olunması özü şübhəli görünür. Bu məqamın özünü dərsliklərin nəşrində daha çox göstərdiyini deyən İ.Orucov hesab edir ki, ali məktəblər plagiat, köhnə dərslikləri nəşr edib tələbələrə təqdim etmək əvəzinə, yeni məzmunlu dərsliklər yazmalıdırlar. Onun sözlərinə görə, ümumiyyətlə, ali məktəblərdə alternativ dərsliklər də yoxdur, bu da tələbələri çaş-baş salır. "Texniki elmlər sahəsində mövcud olan dərsliklərdə də ciddi nöqsanların olması faktdır. Bizm ali məktəblərin, ümumiyyətlə, təcrübə poliqonları yoxdur. Bu da olduqca vacibdir. Ali məktəblərin texnoparkları olmalıdır. Çünki tələbə yalnız nəzəri biliklərlə kifayətlənməməlidir, eyni zamanda, ali təhsil müəssisələri təkcə nəzəri biliklər verməklə işini bitmiş saymamalı, əslində, elmlə təcrübəni bir araya gətirməlidirlər. Tələbə təhsil aldığı müddətdə, eyni zamanda, həmin müəssisələrdə təcrübə qazanmalıdır. Vaxtilə Azərbaycanda çoxlu böyük zavod, istehsalat müəssisələri vardı və tələbələrin əksəriyyəti burada istehsalat təcrübəsi keçirdi. Amma indi bu təcrübə müəssisələri yoxdur" - deyə İ.Orucov vurğuladı.

***İradə SARIYEVA***

# Ödənişli oxuyan tələbələr üçün yeni qanun hansı güzəştlər tanıyacaq...

**Azərbaycanda təhsil haqqını ödəməkdə çətinlik çəkən xeyli sayda tələbə var. Hazırda fəaliyyət göstərən 50-dən çox ali təhsil müəssisəsində 160 mindən çox tələbə təhsil alır ki, onların da 60 faizi öz vəsaitləri hesabına, yəni ödənişli əsaslarla təhsil alır.**

*"Tələbələrə faizsiz kredit verilməli, kredit verilərkən akademik göstəricilər nəzərə alınmalıdır"*

***Kamran Əsədov:** "Ödənişli ixtisaslarda təhsil alan tələbələrə təhsil haqqı ilə bağlı müəyyən güzəştlər tətbiq olunmalıdır"*



Məlumdur ki, ölkəmizdəki təhsil ocaqlarının ixtisas üzrə ortalama təhsil haqqı 3 min manat təşkil edir. Hətta bəzi ixtisaslar üzrə bu rəqəm 6500, 5000, 4500 manat təşkil edir ki, bu məbləğin də ödənilməsi hər şəxs üçün asan deyil. Məhz buna görədir ki, son illər 5 min şəxs təhsil haqqını ödəyə bilmədiyi üçün ali təhsil almaqdan imtina edib.

Bu problemin həll olunması üçün parlamentin payız sessiyasında "Təhsil kreditləri haqqında" qanun layihəsi hazırlanması gözlənir. Bunu Milli Məclisin Elm və təhsil komitəsinin ötən iclasında komitə sədri İsa Həbibbəyli deyib. Komitə sədri bildirib ki, təhsil haqlarının ödənilməsi ilə bağlı ayrıca qanun layihəsinin qəbulunu məqsədəuyğun hesab edirlər: "Hazırda "Təhsil kreditləri haqqında" qanun layihəsinin hazırlanması ilə bağlı iş aparılır və müzakirələr gedir. Bununla bağlı dünya təcrübəsi öyrənilir".

Qeyd edək ki, bu il Prezidentin sərəncamına əsasən, 2019-cu ildən ödənişsiz plan yerlərinin sayı 12 mindən 21 minə qaldırılıb. Hazırda dövlət tərəfindən müəyyən kateqoriyaya aid olan şəxslərin təhsil haqları büdcənin vəsaiti hesabına ödənilir. Yəni Milli Qəhrəman övladları, I, II qrup əlil olan gənclər, Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş vətəndaşların övladları, valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş və ya internat məzunları olan gənclər, I qrup əlil valideyni olan gənclər, hər iki valideyni əlil olan (I,II qrup) gənclərin təhsil haqları dövlət tərəfindən ödənilir.

Maraqlıdır, "Təhsil kreditləri haqqında" qanun layihəsi hazırlanarkən ödənişli ixtisasda təhsil alan tələbələrə hansı güzəştlər tətbiq olunacaq?

Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, ödənişli əsaslarla təhsil alanların sayı artır. Bütün hallarda, ödənişli ixtisaslarda təhsil alan tələbələrə təhsil haqqı ilə bağlı müəyyən güzəştlər tətbiq olunmalıdır: "Qanun layihəsi hazırlanarkən ödənişli ixtisaslarda oxuyan tələbələrə güzəştlərin şamil olunması nəzərə alınmalıdır. İlk növbədə, ali təhsil müəssisələrində təhsil haqqı aşağı salınmalıdır. Hər hansı bir kredit ilə tələbəni yükləməkdənsə, Azərbaycanda ali təhsil müəssisələrinin təhsil haqları aşağı salınmalıdır. Çünki bu gün ali təhsil müəssisələrinin təhsil haqları reallığı əks etdirmir. Biz onları əlavə yükləməkdənsə, təhsil haqlarında müəyyən qədər, 50 faizədək endirim etsək, bu, məsələnin ən yaxşı çıxış yolu olacaq. Nə özəl banklar, nə dövlət bankları, nə də digər fondlar bütün tələbələri əhatə edə biləcək sayda kredit verə bilər.

Bununla yanaşı, tələbələrə faizsiz kredit verilməlidir. Xüsusilə qeyd edim ki, kredit verilərkən akademik göstəricilər nəzərə alınmalıdır. Tək 71 baldan yuxarı olanlara deyil, 51 balı keçənlərə də kredit verilməlidir. Qeyd etdiyim tələbələrə 0 faizlə kredit verilməlidir. Kreditin geri ödənişi bir il ərzində deyil, azı 5 il ərzində həyata keçirilməlidir.

**Günel CƏLİLOVA**



# Bilik günündə məktəb müəllimlərinə hədiyyə edilən güllər zibil qutularında - daha səmərəli istifadə təklifləri...

***Aytəkin Kamranqızı:** "Tədris ilinin ilk günündə müəllimlərə gül və ya başqa bir hədiyyənin təqdim olunması mütləq deyil"*

**Sentyabrın 16-sı Azərbaycanda yeni tədris ilinin ilk dərs günü idi. Yeni tədris ilində 1 525 016 şagird təhsil müəssisələrinə dərsə getdi. Təbii ki, dərsə gedən hər bir şagirdi öz müəllimləri qarşıladı.**

Birinci sinfə gedən uşaqlar müəllimlərinə gül buketi hədiyyə edirlər. Bu hal artıq ənənə halını alıb. Sinifdə neçə şagird olacaqsa, hər biri müəlliminə gül buketi təqdim edir. Dərsə gedən şagirdlər müəllimlərini yeni tədris ili münasibətilə təbrik etmək üçün məktəbə gül buketləri gətirirlər.

Amma təəssüf ki, şagirdlərinin gətirdiyi gül buketlərinə ağız büzən müəllimlər də oldu. Elə bu səbəbdən də hövsələsizlik edib onlara təqdim olunan gül dəstələrini güldana deyil, zibil qutularına tulladılar...

Halbuki, ən azı, nəzakət xatirinə həmin buketləri evə apara, sonra heç kim görmədən ata bilərdilər. Amma bəziləri bunu etmədilər. Buketləri elə məktəbin yanındakı zibil qutusuna atdılar. Həm də hamının görə biləcəyi şəkildə, nümayişkaranə...

Müəllimlərə təqdim olunan gül buketinin zibil qabına atılması barədə foto sosial şəbəkədə geniş müzakirə olundu. Müəllimlərin bu hərəkəti valideynlər tərəfindən xoş qarşılanmadı. Əksər valideyn müəllimlərə təqdim olunan gülün zibil qabına atılmasından təəssüfləndi. Pedaqoqlar nəzərə almalı idi ki, güllərin yeri zibil qutusu deyil.

Bəzi ekspertlər təklif edirlər ki, güllər ilk dərs günündən müəllimlərə təqdim olunacaq hədiyyə ilə dəyişdirilməlidir.

*"...onlara kitab, ya da suvenir hədiyyə olunmalıdır ki..."*

Sosioloq Aytəkin Kamranqızı bizimlə söhbətində bildirdi ki, Bilik günündə müəllimlərə gül və ya başqa bir hədiyyənin təqdim olunması mütləq deyil: "Qonşu ölkələrdə ilk dərs günü məktəbə gedən şagirdlər müəllimlərinə ya tək qızılgül, ya kitab verir, ya da heç nə vermədən yeni tədris ili münasibətilə pedaqoqlarını təbrik edirlər. Analoji qayda ölkəmizdə də tətbiq oluna bilər. Ölkəmizdə müəllimlərə təqdim olunan gül buketinin həcminin iri və güllərin sayının çox olmasına önəm verilir. Valideynlər həmin buketlərə ən azı 30-50 manat dəyərində vəsait xərcləyirlər. Birincilərin əllərində olan gülə nəzər yetirəndə görmək olar ki, buket uşaqların özlərindən böyükdür. Müəllimlər də bəyənmədikləri gül buketini zibil qutusuna tullayırlar. Bilik günündə müəllimlərə hədiyyə olunan gül buketinin zibil qutusuna atılmasından sonra pedaqoqlara gül deyil, kitab, ya da suvenir hədiyyə olunmalıdır ki, onu çölə atmasınlar".

**Günel CƏLİLOVA**

# Kinematoqrafiya avadanlıqlarının idxal rüsumları niyə ləğv edilmir?

**Azərbaycanda kino sənayesinin yenidən qurulması prosesinə başlanıb. Prezident İlham Əliyevin imzaladığı və kinonun inkişafına təkan verən bir sıra aktlar bu sahədə yeniliyi labüd edir. Bildiyimiz kimi, kinematoqrafiya sahəsində hələ də həllini tapmayan bir sıra problemlər var ki, onların həllinin gerçəkləşməsində yeni hazırlanan və təsdiq üçün Milli Məclisə təqdim edilən "Kinematoqrafiya haqqında" qanun layihəsi mühüm rol oynaya bilər.**



***Şamil Əliyev:** "Ölkəyə gətirilən texniki avadanlıqlara gömrük və vergi güzəştlərinin, imtiyazlarının edilməsi çox vacibdir"*

***Əli İsa Cabbarov:** "Azərbaycan filmlərinin prokatı ilə bağlı kinoteatrlara vergi güzəştləri edilməlidir"*

Məlumdur ki, Azərbaycan kinosunda mövcud olan problemlərdən danışarkən, ilk növbədə, bu sahəyə vergi və gömrük güzəştlərinin edilməməsi diqqəti cəlb edir. Uzun illərdir kinematoqraflar kino istehsalı üçün xaricdən alınaraq ölkəmizə gətirilən texniki avadanlıqlarla bağlı vergi və gömrük güzəştlərinin edilməli olduğunu bildirirlər. Qeyd edirlər ki, hansısa bahalı texniki avadanlığın ölkəyə gətirilməsi şirkətlərə həddən artıq baha başa gəlir, bu səbəbdən də şirkətlər texniki avadanlıqlar gətirmək istəmir, kinematoqrafçılar isə mövcud texniki avadanlıqlarla işləməyə məcbur olurlar.

Milli Məclisin Mədəniyyət komitəsinin iclasında çıxış edən komitə sədri Rafael Hüseynov bildirib ki, başqa sahələrdə nəzərdə tutulan imtiyazların kinematoqrafiya sahəsinə də aid edilməsi bu sahənin inkişafına təkan verə bilər.

"Kinematoqrafiya haqqında" qanun layihəsinin hazır olduğunu deyən R.Hüseynovun qeyd etdiyinə görə, kinematoqrafiya sahəsinə güzəştlərin edilməsi ilə bağlı artıq müvafiq qurumlara müraciət edilib: "Başqa qanunlarda nəzərdə tutulan imtiyazların kinematoqrafiya sahəsinə də aid edilməsini arzu edirik. Bunun üçün biz müvafiq dövlət orqanlarına müraciət etmişik. Çalışırıq ki, imtiyazlarla bağlı müraciətlər müsbət həll olunsun. Həmin müraciətlər müsbət həll edilərsə, qanun layihəsi çox tezliklə Milli Məclisdə müzakirəyə çıxarılacaq".

Tanınmış kinematoqraflar hesab edirlər ki, kinonun hazırkı əsas problemlərindən biri vergi və gömrük imtiyazlarının olmaması ilə bağlıdır. Bu məsələ həllini taparsa, kino sahəsində inkişafın şahidi ola bilərik.

Tanınmış kinorejissor, ssenarist Şamil Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda "Kinematoqrafiya haqqında" ilk qanun Heydər Əliyev tərəfindən imzalanıb və bu qanunun müəllifi H.Əliyevdir. "Kino haqqında ilk qanunu ulu öndərimiz imzalayıb. Bizdə bu haqda qanun imzalananda keçmiş SSRİ məkanında heç bir respublikada bu qanun imzalanmamışdı. Bu qanunun kifayət qədər müsbət tərəfləri vardı və burada başdan ayağa Azərbaycan kinosunun inkişafı nəzərdə tutulmuşdu. Sadəcə olaraq hər dəfə o qanundan irəli gələn məsələləri, tələbləri yerinə yetirmək olmurdu. Bu qanun ulu öndərin adı ilə bağlıdır. Bu qanunda müəyyən müddəaları dəyişmək olardı. O ki, qaldı yeni qanun layihəsində yer almalı olan imtiyazlara, bu vacib məsələdir. Bir sıra məsələlər var ki, onlarla bağlı yeni müddəalar olmalıdır. Bilirsiniz ki, Azərbaycan kino istehsalı üçün avadanlıqlar istehsal etmir və çox vacib avadanlıqların 90 faizdən çoxu xaricdən idxal olunur. Bu avadanlıqların ölkəyə gətirilməsinə çox böyük rüsumlar qoyulur, bununla bağlı imtiyazların edilməsi vacibdir. Ölkəyə gətirilən texniki avadanlıqlara gömrük və vergi güzəştlərinin, imtiyazlarının edilməsi çox vacibdir və bunun da qanunvericilikdə öz əksini tapması çox yaxşı olardı.

Həmçinin, böyük müştərək kino proyektlərinə meydan açılmalıdır. Biz hələ AVROMAŞ-ın üzvü deyilik. Bu artıq Avropa Parlamentində Azərbaycan üçün ratifikasiya edilib, Azərbaycan parlamenti də onu ratifikasiya etməlidir ki, bundan sonra biz beynəlxalq aləmdə müştərək proyektlərdə iştirak edək. Bu gün Azərbaycanın özünün müstəqil olaraq istehsal etdiyi hansısa bir filmin Avropa məkanına çıxması, demək olar ki, mümkün deyil, çox çətindir. Ancaq AVROMAŞ-ın üzvü olduqdan sonra sən bu sistemdə tam öz tələblərin daxilində iş görə bilərsən. Bunun müsbət tərəfi odur ki, biz həm də beynəlxalq fondlarla çox asan işləyə bilərik. Qanunda bununla bağlı ayrıca bənd olmalıdır".

Ş. Əliyevin sözlərinə görə, Azərbaycanda filmlərin yayılması məsələsi də var. O hesab edir ki, Azərbaycan AVROMAŞ-ın üzvü olduqdan sonra filmlərimiz asanlıqla Avropa ölkələrinə yol açacaq. Onsuz da kinoteatrlarda nümayiş edilən filmlərinin çox böyük hissəsinin xarici filmlər olduğunu deyən Ş.Əliyevin bildirdiyinə görə, bizim də filmlərin nümayişi üçün meydan açılmalıdır. "AVROMAŞ-ın üzvü olsaq, distribütorlarla işləmək də çox asan olacaq. Yəni bu, qanuni şəkil alır. Hesab edirəm ki, qanunvericiliyə salınan müddəalar kino sənayesinin inkişafına xidmət etməlidir" -deyə Ş.Əliyev vurğuladı.

Kinorejissor Əli İsa Cabbarov isə hesab edir ki, kinematoqrafiyanın inkişafını ləngidən kino avadanlıqlarının idxalına qoyulan gömrük və vergi rüsumlarının çox olması deyil. Ancaq bununla belə, bu sahədə müəyyən imtiyazların vacibliyini deyən Ə.İ.Cabbarovun sözlərinə görə, bunun da bu sahəyə xeyri olar. Mütəxəssis bildirdi ki, "Azərbaycanfilm" kinostudiyası da daxil olmaqla, ölkədə fəaliyyət göstərən bütün kino şirkətləri vergi ödəyir. "Həqiqətdə Azərbaycan kinosunun problemləri bu sahəyə imtiyazların tətbiq edilməməsi ilə bağlı deyil. İmtiyazlar olduğu halda Azərbaycan kinosunda inkişaf olacağını demək düzgün olmaz. Mənə elə gəlir ki, dövlət tərəfindən kinoya ayrılan vəsaiti daha effektiv xərcləmək lazımdır. Cənab Prezidentin göstərişinə əsasən kinonun inkişaf konsepsiyası hazırlanmalıdır. Mən kinonun inkişaf konsepsiyasını daha ümidlə gözləyirəm. Fikrimcə, imtiyazların verilməsi heç nəyi dəyişməyəcək, bu yalnız rəqəmləri dəyişə bilər.

Ölkəmizə yaxın illər üçün yeni kino avadanlıqlarının alınmasına ehtiyac yoxdur, çünki Azərbaycanda 3-4 dünya səviyyəsində texnika ilə təchiz olunmuş şirkət var. Sadəcə, dövlətin ayırdığı vəsaitin səmərəli idarə edilməsi tələb olunur. İmtiyazlar edilərsə, əsasən Azərbaycan filmlərinin prokatı ilə bağlı kinoteatrlara vergi güzəştləri edilməlidir. Yəni filmlərimizi nümayiş etdirən kinoteatrlara vergi güzəştləri edilsin. Ola bilsin, Azərbaycan kinolarına baxmağa tamaşaçı az gəlsin və bunun üçün də kinoteatrların itkiləri bu şəkildə ödənilsin" - deyə Ə.İ.Cabbarov bildirdi.

***İradə SARIYEVA***

№ 166 (4064) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

19 SENTYABR 2019-cu il

www.baki-xeber.com

# "Nar" "Bilik günü"nü kənd məktəbliləri ilə birgə qeyd etdi

**Elm və təhsilin inkişafına xüsusi önəm verən "Nar""Bilik günü" münasibətilə dahabir uğurlu sosial layihəsini həyata keçirib.**

Bu dəfə mobil operator-kənd məktəblilərini sevindirib. "Nar" Cəlilabadın Təzəkənd kəndində yerləşən məktəbin 1-ci sinif şagirdlərini bütün lazımi məktəb ləvazimatları ilə təmin edib. Bura məktəblilərin tədris ili dövründə istifadə edəcəkləri məktəbli çantası, dəftər, rəngli karandaşlar və digər dəftərxana ləvazimatları daxildir. Bununla da mobil operator məktəbə yeni qədəm qoyan uşaqlarda oxumağa həvəs yaratmağa çalışıb.



"Nar"ın gəlişi uşaqların da sevincinə səbəb olub və onların bayramına bayram qatıb. Şagirdlər hədiyyələrə bigarə qalmayıblar. Onlar məktəbi uğurla başa vuracaqlarına, gələcəkdə ölkəmizə layiqli vətəndaş və öz peşələrinin ən yaxşı mütəxəssisi olacaqlarına söz veriblər.

Qeyd edək ki, "Nar" Cəlilabadın Təzəkənd kəndində yerləşən məktəbə artıq 2-ci dəfədir ki, səfər edib. Mobil operator bu il aprelin 23-də Beynəlxalq Kitab Günündə məktəbin kitabxanasına 500-dən artıq kitab və elektron kitabxanaya giriş imkanı yaradan müasir kompüterlər hədiyyə etmişdi.

"Azerfon"un İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov bildirib ki, elm və təhsilin təbliği "Nar"ın sosial layihələrinin vacib istiqamətlərindən biridir: "Bir neçə ay bundan öncə biz bu məktəbə kitablar hədiyyə edəndə uşaqların gözlərində yaranan sevinc işığı, oxuma həvəsi bizi bir daha bura gətirdi. Məqsədimiz odur ki, məktəbə yeni qədəm qoyan şagirdlər "Nar"-ın diqqətini hiss etsinlər. İnanırıq ki, bizim dəstəyimiz şagirdlərin təhsilə marağını daha da artıracaq və onlar gələcəkdə yüksək bilik əldə etməklə cəmiyyətimizin inkişafına öz töhfələrini verəcəklər".

Məktəbin direktoru Valeh Niftiyev bu hədiyyələrin şagirdlərin daha yaxşı oxumasına stimul verəcəyini bildirib: "Bizim məktəblilər arasında bu vəsaiti almaqda çətinlik çəkən ailələr vardı. Bu onlar üçün xüsusilə böyük hədiyyə oldu. Bundan əvvəl "Nar"ın bizim kitabxanaya tədim etdiyi kitablar şagirdlərin mütaliəyə marağını daha da artırdı. Təqdim edilən hədiyyələri bizə verilən yüksək dəyər kimi qiymətləndiririk və "Nar"a təşəkkür edirik".

Qeyd edək ki, "Nar" məktəbləri kitabla və məktəb ləvazimatları ilə təmin etməyi artıq bir ənənə halına çevirib. Mobil operator uşaqlada kitab oxumaq vərdişinin formalaşmasına dəstək olmaq və təhsilin önəmini aşılamaq məqsədilə uğurlu layihələr icra edib.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,5 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8000-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Elan

Mamedov Məhərrəm Əşrəf oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əzimov İlkin Elçin oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Mirzəyev Rəşad Mirmövsüm oğlunun adına, Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən 90EF581 nömrə nişanlı "Opel vectra" avtomobilinə verilmiş texniki pasport itdiyi üçün etibarsız sayılır.

Orucov Yalçın Firdovsi oğluna Azərbaycan Texniki Universitetinin nəzdində olan Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Məmmədova Qəndab Nizami qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Bayramova Aynur Sübhan qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Səfərov Tural Daşqın oğluna məxsus, Abşeron rayonu, Masazır kəndində yerləşən 0.015 ha torpağın çıxarış və alqı-satqı müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Qəhrəmanov Teymur Musa oğlunun adına, Ağstafa rayonu, Xətai kəndində yerləşən torpaq sahəsinin mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN-438A kod 50208018) itdiyi üçün etibarsız sayılır.

Məmmədova Zümrüd Qafar qızına Bakı Slavyan Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Planlarınızda zəruri dəqiqləşdirmələr aparın. Yaxın perspektivdə atacağınız addımları tələsmədən müəyyənləşdirin. Ciddi islahatlara başlamaq fikriniz varsa, situasiyanı qiymətləndirin.



**Buğa** - Situasiya təxirəsalınmaz müdaxilə və çevik hərəkətlər tələb edir. Nəyi nə zaman edəcəyinizi bilin. Peşəkar fəaliyyət müstəvisində köklü dəyişikliklər və ya spontan yeniliklərə heç bir ehtiyac yoxdur.



**Əkizlər** - Günün ilk yarısında fikirləriniz dağınıq olmasın. Qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün inamlı, inadlı və qətiyyətli olun. Səfər, səyahət, yazışma üçün əlverişli gündür.



**Xərçəng** - Cari məsələlərin həlli üçün rasional düşünün. Praqmat olun, dəyərləndirmələrdə obyektiv, hesablamalarda dəqiq olun. Bilik və bacarıqlarınızı artırın. Günün ikinci yarısında müşkül vəziyyətdən çıxış üçün intizam gərəkdir.



**Şir** - Diqqət mərkəzində olsanız da, özünüzü normal hiss etmək üçün nəyinsə çatışmadığını hiss edəcəksiniz. Nisgilə qapılaraq ötənlərdəki hadisələrin önəmini olduğundan artıq dəyərləndirməyin.



**Qız** - Tənbəllik etməyin, intizamlı olun. Maraqlandığınız işlə mümkün qədər çox məşğul ola bilərsiniz. Ciddi yanaşma tələb edən məsələlər var. Fəaliyyətinizə maneələr yaradan məqamları sürətlə həll edin, sədləri aradan qaldırın.



**Tərəzi** - Yaxın ətrafınızdakı insanlara qarşı ifrat iradlarla çıxış etməyin. Şəriklərin fikrini, tərəfdaşların mövqeyini qulaqardına vurmayın. Problemlərin həllinə yaradıcı yanaşın.



**Əqrəb** - Analitik bacarıqlar, sistem yanaşma tələb edən gündür. Uzaqdakı tanışlardan və ya dostlardan birinin yardım istəyi ilə üzləşəcəksiniz. Sizə həvalə edilmiş işi təkbaşına görməyə çalışın.



**Oxatan** - Sizi aldatmağa çalışacaqlar. Diqqətli olun, hər vədə və deyilən sözə inanmayın. Yaltaq, xəbis insanlardan uzaq durun. İşlərin əsas hissəsini günün ilk yarısında görməli olacaqsınız.



**Oğlaq** - Günün ilk yarısından etibarən qeyri fəallıqdan uzaq durun. Yeni plan hazırlamaq, yaxın perspektivdə atacağınız addımları bəri başdan müəyyənləşdirmək olar. Məntiqi düşünün, yaşananları sistemli təhlilə uğradın.



**Dolça** - Günün ilk yarısında fəal olun, formada qalın. Fəaliyyətinizlə bağlı müəyyən sistem formalaşdırın və planlara riayət edin. Reqlament olunmuş proseslərin məcrasından kənara çıxmayın.



**Balıqlar** - İllüziyalara və fantaziyalara qapılmayın. Dostlarla təmasları aktivləşdirin, işgüzar əlaqələri inkişaf etdirin. Tapşırılmış işlə bağlı təfərrüatları araşdırın. Əlavə məlumatlar əldə etməyə çalışın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

# "Azercell" jurnalistlər üçün təşkil edilən ingilis dili kurslarının qaliblərini mükafatlandırıb

**Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC tərəfindən mətbuat nümayəndələri üçün təşkil edilən növbəti ingilis dili kursları başa çatıb.**

Şirkət sentyabr ayının 18-də kursu müvəffəqiyyətlə bitirən jurnalistlərlə görüş keçirib. Tədbirdə çıxış edən "Azercell Telekom" MMC-nin prezidenti Vahid Mürsəliyev mətbuat nümayəndələrini cəmiyyətin rəqəmsal savadlılıq səviyyəsinin artırılması istiqamətində şirkətin əsas tərəfdaşı adlandırıb. "İctimai fikrin formalaşmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində töhfəniz böyükdür və danılmazdır", - deyə Vahid Mürsəliyev öz çıxışında bildirib. Tədbirin sonunda iştirakçılar "Azercell" şirkəti tərəfindən sertifikat və müxtəlif dəyərli hədiyyələrlə mükafatlandırılıb.

Qeyd edək ki, 6 ay davam edən kurslar zamanı mətbuat nümayəndələrinə qrammatika, danışıq, dinləmə və yazı qabiliyyəti üzrə ingilis dili biliklərini gücləndirmək imkanı yaradılıb. Məşğələlər "Language Solutions" şirkəti tərəfindən bir neçə səviyyəli proqram üzrə tədris olunub.

"Azercell Telekom" MMC qloballaşma dövründə mətbuat nümayəndələrinin daha çox resurslara çıxışını təmin etmək, eləcə də onların beynəlxalq əlaqələr qurmasına və təcrübə mübadiləsindən faydalanmasına şərait yaratmaq üçün müntəzəm şəkildə müxtəlif peşəkar təlimlər və xarici dil kursları keçirir. Şirkət 22 illik fəaliyyəti boyunca ölkədə jurnalistikanın inkişafına dəstək olmaq məqsədilə bir çox layihəni reallaşdırıb. Məlumat üçün bildirək ki, indiyədək 500-ə yaxın jurnalist "Azercell" şirkətinin təşkil etdiyi ingilis dili kurslarının iştirakçısı olub.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.